www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 noyabr 2015-ci il Çərşənbə axşamı № 249 (6277) Qiymәti 40 qәpik

**Xəbər**

## Qazaxda sərhədi pozub Azərbaycan tərəfə keçən erməni qadın tutuldu

yazısı səh.2-də

**Gündəm**

### "MTN işi"ndə yeni sensasiya - generalitetin kabinetlərindən nə tapılıb?



Bəzi kabinetlərdə hələ aktiv olmayan gizli xüsusi dinləmə qurğuları aşkar edilib; Eldar Mahmudovun da həbsi sanksiyası imzalanmaq üçün hazırdır

yazısı səh.8-də

### Müxalifətsiz Milli Məclis - keçmiş deputatlar nə düşünür...

yazısı səh.12-də

*Hacı Tale:*

### "MTN-in vəhhabizmə dəstək olduğunu deyirdik, artıq bu, sübut olundu"

yazısı səh.3-də

### Masallı-Lənkəran yolunun 38 kilometrlik ərazisi fəlakət içindədir

yazısı səh.6-da

### Neft bahalaşa bilər

yazısı səh.11-də

### Azərbaycan türklərinin təhqir edilməsi Cənubi Azərbaycanı ayağa qaldırdı

yazısı səh.9-da

*Müdafiə naziri:*

### "Düşməndən güclü olduğumuzu yaxınlarda sübut edəcəyik"

yazısı səh.13-də

### Satışda təhlükəli duzlar var

yazısı səh.15-də

### Gənclərin yaratdığı "AĞ blok" partiyaya çevrilir

yazısı səh.12-də

### Amerikalı həmsədrin erməni təəssübkeşliyinin pərdəarxası

yazısı səh.13-də

### MTN-in daha bir məsul əməkdaşı saxlanıldı

yazısı səh.5-də

### SOCAR-ın erməni kilsələrinə pulsuz qaz verməsinə iki baxış...

yazısı səh.11-də

## Akif Çovdarovun gizli həbsxana saxladığı üzə çıxdı

# MTN GENERALININ "QUANTANAMOSU" - ŞOK

Akif Çovdarovun özünün ayrıca adam oğurluğu ilə məşğul olan böyük bir dəstəsi və bu dəstənin MTN-dən kənarda, Bakının heç kimin ağlına gəlməyəcək yerində gizli həbsxanası da olub; **Elçin Behbudov:** "3 metr yerin dərinliyində, havasız, sanitar qovşağı olmayan dəhşətli bir yer idi"



yazısı səh.5-də

## Türkiyə üçün uğur ssenarisi - ondan Azərbaycana da pay düşür

Qardaş ölkə seçicisi 1 noyabrda məhz bu ssenariyə xeyir-dua verib; Türkiyə dövlətçiliyi daxili və xarici təhdidlərə qarşı yeni immunitet qazanıb...

yazısı səh.9-da



*Turqut Ər:*

### "Cənubdan İran, şimaldan isə Rusiya Azərbaycanı sıxır - müstəqillik təhlükədədir"

yazısı səh.10-da



*Pənah Hüseyn:*

### "Yeni mərhələnin lideri olmağa iddialıyam"

yazısı səh.4-də



*Rauf Arifoğlu:*

### ""Yeni Müsavat" yırtılmış siyasət gəmiləri üçün tıxac materialı ola bilməz"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

## İlham Əliyev: "Hərbi sənaye sahəsində alimlərin fəaliyyəti üçün geniş meydan var"



**"Hərbi sənaye sahəsində Azərbaycan alimlərinin fəaliyyəti üçün geniş meydan var". APA-nın məlumatına görə, bunu noyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illik yubileyinə həsr olunmuş mərasimdə çıxış edən prezident İlham Əliyev bildirib.**

Dövlət başçısı deyib ki, bu gün Azərbaycan 1000 növdən çox hərbi təyinatlı məhsul istehsal edir və Azərbaycan ordusunun təminatı əsasən daxili istehsal hesabına həyata keçirilir: "Alimlər qarşısında duran vəzifələr çoxdur. Əsas isə odur ki, Azərbaycan elmini inkişaf etdirsin və ümumi inkişafımıza töhfə versinlər".

## Jurnalistlər Göygöldə bayraq aksiyası keçirdilər



**Parlament Jurnalistləri Birliyinin (PJB) bir qrup üzvü 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə Göygöldə səfərdə olublar. Modern.az xəbər verir ki, PJB-nin təşəbbüsü və təşkilatçılığı ilə baş tutan səfər zamanı jurnalistlər öncə Göygöl rayonunun mərkəzində yerləşən Bayraq Meydanını ziyarət ediblər.**

Daha sonra jurnalistlər cəbhə xəttinin yaxınlığındakı kəndlərə gedərək orada bayraq aksiyası keçiriblər. PJB üzvləri sakinlərə kiçik ölçülü dövlət bayraqları paylayarkən, onlara Azərbaycanın dövlət bayrağının yaranma tarixi və bayrağımızdakı rənglərin mənası barədə suallar ünvanlayıblar. Çox maraqlıdır ki, dövlət rəmzimizin yaranma tarixini və bayrağın rənglərinin mənasını bilənlərlə yanaşı, bilməyənlər də çox olub. Onların arasında orta məktəb şagirdləri üstünlük təşkil edib. Jurnalistlər isə onlara Azərbaycanın üç rəngli, ay ulduzlu bayrağının 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qərarı ilə yaradıldığını və bayrağın üzərindəki mavi rəngin türkçülüyün, qırmızı rəngin müasirliyin, yaşıl rəngin isə İslamın rəmzi olduğunu çatdırıblar.

Düşmənlə təmas xəttində yaşayan göygöllülər bildiriblər ki, onlar Azərbaycan bayrağının tezliklə əsgərlərimizin işğaldan azad edəcəyi torpaqlarımızda - Kəlbəcərdə, Laçında, Xankəndində və digər rayonlarımızda dalğalanmasını gözləyirlər.

İki günlük səfərin sonunda PJB üzvləri Göygöl Milli Parkında olub, bayramı orada qeyd ediblər.

❑ **Vüqar MURAD**

## Nazirlik Tovuzda 3 güllə ilə vurulan əsgərlə bağlı məlumat yaydı

**Müdafiə Nazirliyi Tovuzda ölən əsgərlə bağlı məlumat yayıb. Musavat.com xəbər verir ki, nazirliyin yaydığı xəbərdə bildirilir ki, 2015-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsindən hərbi xidmətə çağırılmış Silahlı Qüvvələrin hərbi qulluqçusu, 1996-cı il təvəllüdlü əsgər Siraclı Məhəmməd Malik oğlunun ölümü ilə bağlı Qazax Hərbi Prokurorluğu tərəfindən cinayət işi başlanıb, araşdırma aparılır.**

Nazirliyin məlumatında qeyd edilir ki, baş vermiş hadisə ilə bağlı ictimaiyyətə dəqiq məlumatın çatdırılması məqsədilə müvafiq qaydada Müdafiə Nazirliyi və Hərbi Prokurorluq birgə tədbirlər həyata keçirir: "Lakin bəzi kütləvi informasiya vasitələri tələskənliyə yol verərək qeyri-dəqiq, rəsmi təsdiqlənməyən məlumatlar yaymaqla ictimaiyyətdə yanlış təsəvvürün yaranmasına səbəb ola bilər. Buna görə də Silahlı Qüvvələr haqqında verilən xəbərlərin Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməsi bir daha tövsiyə olunur".

Qeyd edək ki, əsgərin yaxınları bildiriblər ki, Məmməd Siraclının kürəyində 3 güllə yarası olub. Onun özünü öldürməsi ilə bağlı səsləndirilən iddiaları qəbul etməyən ailə bildirir ki, 19 yaşlı əsgər güllələnərək öldürülüb.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Mübariz İbrahimov anıldı

**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun torpağa verilməsinin ildönümü qeyd edilib. Musavat.com xəbər verir ki, noyabrın 9-da Müdafiə Nazirliyinin və Daxili Qoşunlar heyətinin bir qrupu şəhidin məzarını ziyarət edib, onun qəbrinə gül dəstəsi qoyub.**





İnanclılar da İkinci Fəxri Xiyabanda şəhid Mübariz İbrahimov və şəhid Fərid Əhmədovun qəbrini ziyarət ediblər.

Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 1994-cü il şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinə daxil olub. 2005-ci ildə orta təhsilini başa vurub, hərbi xidmətə çağrılıb.

Hərbi xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçib, Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz hücumla birinci həmlədə məhv edib. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşüb. Düşməni ağır itkilərə məruz qoyub, onların zəif cinahlarını üzə çıxarıb. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.Mübariz İbrahimovun şəhid olmasına baxmayaraq, ermənilər onun cəsədini 141 gün saxlayıblar. Ermənilər tutduqları əməldən zövq alırmış kimi, İbrahimovun şəkillərini internet saytlarında yayımlamışlar. Danışıqlardan sonra hərbçi Mübariz İbrahimovun meyiti 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında qarşı tərəfdən alınıb. Proses əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

2010-cu il noyabrın 7-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasimindən sonra şəhid qəhrəman dəfn edilib.



Flora Kərimova

## Xalq artisti mirasını köməkçisinə vəsiyyət etdi

**Xalq artisti Flora Kərimovanın köməkçisi Yaqut xanım cavan yaşlarından sənətkarımızın qulluğundadır.**

Xalq artistinə uzun illərdir ki, etibarlı olan köməkçisinə Flora xanım böyük jest edib. O, mirasını övladları ilə yanaşı, köməkçisinə də vəsiyyət edib.

Gecce.az xəbər verir ki, bu barədə o, "ATV Maqazin" verilişinə danışıb: "Yaqut cavanlığından yanımdadır. Anası onu mənə etibar edib. Övladlarım bilirsiz, xaricdə yaşayırlar. Mirasım həm oğlum Oqtay, həm qızım Zümrüd, eyni zamanda Yaqutun arasında bölünüb".

**Yaqut xanım isə öz növbəsində bunları danışıb:** "Anam rəhmətə gedəndən mən Flora xanımın yanında yaşayıram. Zümrüdü mən böyütmüşəm. Yadımdadır ki, Flora xanım Zümrüdün dünyaya gəlməsini istəmirdi. Həkimlə danışmışdı, uşağı bətnindən götüzdürmək istəyirdi. Evin qapısını bağlayıb, açarı gizlətdim. Zümrüdün atasını yığıb, təcili evə çağırdım. Vəziyyəti biləndən sonra Flora xanımla danışdı və onu fikrindən döndərə bildik".



## Bir qrup zabitə polkovnik hərbi rütbəsi təqdim olunub

**Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən bir qrup zabitə növbəti polkovnik hərbi rütbəsi verilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Report"a bildirilib ki, hərbi qulluqçuları qəbul edən müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.**

Müdafiə naziri son vaxtlar dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən, Prezident Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrdə görülən irimiqyaslı quruculuq işlərindən danışıb.

General-polkovnik Z.Həsənov vurğulayıb ki, dövlətin orduya göstərdiyi bu yüksək diqqət və qayğıya cavab olaraq hər bir zabit üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməli, Azərbaycan Silahlı Qüvvələri xalqın və dövlətin etimadını doğrultmaq üçün bütün vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlməlidir.

## Qazaxda sərhədi pozub Azərbaycan tərəfə keçən erməni qadın saxlanıldı

**Qoşunların təmas xəttində Ermənistan vətəndaşı saxlanılıb. APA TV-nin Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbərinə görə, noyabrın 8-də Azərbaycan-Ermənistan dövlət sərhədini Qazax rayonu istiqamətində pozan Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kənd sakini, ilkin ehtimala görə, 1942-ci il təvəllüdlü Lusine Qukasovna Abovyan müdafiənin ön xəttində yerləşən Silahlı Qüvvələrimizin bölmələri tərəfindən saxlanılıb.**

Saxlanılan Ermənistan Respublikasının vətəndaşına qarşı beynəlxalq hüquq normaları tərəfindən təsbit edilmiş qaydalar çərçivəsində davranılır. Qısa müddətdə, müvafiq prosedurlar həyata keçirilməklə o, qarşı tərəfə təhvil veriləcək.

## Əli Abbasov: "Nazirlik əməkdaşlarından müvəqqəti saxlanılanlar var"

### İstehsalat Birliyinin maliyyə və təsərrüfat fəaliyyətinə aid istintaq araşdırmaları aparılır"

**Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) maliyyə və təsərrüfat fəaliyyətinə aid istintaq araşdırmaları aparılır.**

APA-nın məlumatına görə, bunu rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov "Milli Təhlükəsizlik Nazirliyi işi" ilə bağlı aparılan həbslərə və istintaq araşdırmaları barədə yayılan məlumatlara münasibət bildirərkən deyib.

Ə. Abbasov qeyd edib ki, bu ilkin araşdırmalardır və bununla bağlı olaraq digər müəssisələrdə də araşdırma aparılır: "Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin maliyyə və təsərrüfat fəaliyyətinin Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur".

Nazir deyib ki, hazırda nazirlik əməkdaşlarından müvəqqəti saxlanılanlar var: "Onları müvafiq şəxslər əvəz edir və hesab edirəm ki, bu gün Azərbaycanda rabitə sistemi tələb olunan standartlara cavab verir, qanuni fəaliyyət göstərir. Burada heç bir problem yoxdur".

Ə. Abbasov nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun həbs olunması ilə bağlı yayılan xəbərlər barədə suala cavab verməkdən imtina edib.

## Türkiyədə İŞİD üzvü olan 14 azərbaycanlı saxlanıldı

**Türkiyənin Adana şəhərində Suriyaya keçib İŞİD-ə qoşulmaq istəyən 14 Azərbaycan vətəndaşı saxlanılıb. APA TV-nin vesti.az-a istinadən xəbərinə görə, onlar 38 nəfərlik qrupun içində olublar. Onların arasında uşaqlar və qadınlar da var.**

Azərbaycanlılardan başqa saxlananların sırasında 7 İndoneziya, 5 nəfər İraq və Qırğızıstan, 2 Tacikistan və bir İran və Əfqanıstan vətəndaşının da olduğu bildirilir.

Həmin şəxsləri Suriya ərazisinə keçirməyə cəhd edən iki Türkiyə vətəndaşı da saxlanılıb.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# "Əlini öpdüyüm din xadimi Həmədani azərbaycanlıdır"

## Hacı Tale: "Milli Təhlükəsizlik Nazirliyinin vəhhabizmə dəstək olduğunu deyirdik, artıq bu, sübut olundu"

**Ötən həftənin sonlarından başlayaraq, ölkə gündəminin əsas müzakirə mövzularından biri "Müsəlman Birliyi Hərəkatı" və qurumun sədri Hacı Tale Bağırzadədir. Hacı Talenin Yasamal Polis İdarəsində döyüldüyü barədə sosial şəbəkələrdə paylaşdığı statusla başlayan proses onun müavini Elçin Qasımovun həbsi ilə artan xətlə getdi.**

E.Qasımovun azadlığa buraxılması tələbi ilə çoxlu sayda dindarın Sabunçu Rayon Polis İdarəsinin Bakıxanov qəsəbəsində yerləşən inzibati binasının qarşısına toplaşması və nəticədə polislərlə yaranan qarşıdurma yaşanan hadisələrin pik nöqtəsi oldu. Bundan sonra telekanallarda, mətbuat və sosial şəbəkələrdə Hacı Tale və təşkilatı ilə bağlı ciddi ittihamlara start verildi. Əsas ittihamlardan biri "Müsəlman Birliyi Hərəkatı" sədrinin bu ilin avqustunda İranın dini xadimi Ayətullah Həmədani Azərbaycana səfərə gələrkən onun əlini öpməsi göstərildi.

Son günlərdə sosial şəbəkələrdə yayılan bir video isə sözün həqiqi mənasında baş verən proseslərə öz damğasını vurdu. Videoda özlərini Hacı Talenin tərəfdarları kimi təqdim edən naməlum şəxslər bildirirlər ki, o, həbs olunarsa, ölkədə qan su yerinə axacaq.

**Bütün bunlarla bağlı Hacı Talenin mövqeyini öyrəndik.**

**"Müsəlman Birliyi Hərəkatı"nın sədri son günlərdə onlara qarşı başladılan kampaniyanın apardıqları uğurlu siyasətdən qaynaqlandığı qənaətindədir:** "Biz konstitusiya çərçivəsində fəaliyyət göstəririk. Hakimiyyət istəyir ki, addımlarımızı təhrif etsin. Bunun səbəbi də xalqın içərisində "Müsəlman Birliyi Hərəkatı"na olan sevginin günü-gündən artmasıdır. Sosial bazamız artmaqdadır. İnsanlar bizə inanırlar. Bundan hakimiyyət nümayəndələri çox narahatdır. Bizi cəmiyyətə başqa cür təqdim etmək istəyirlər. Aparılan təbliğatlar bumeranq xarakterlidir. Nə edirlərsə, özlərinə qayıdır. Bir müddət öncə sizin qəzetdə müsahibəm dərc olunmuşdu. Vəhhabilərin arxasında oliqarxların dayandığını demişdim. Həmin şəxslərin hakimiyyət tərəfindən dəstəkləndiyini bildirmişdim. Bu müsahibə ölkədə səs-küy yaratmışdı. Müsahibədən sonra MTN-də məlum proseslər başladı. Sübut olundu ki, Milli Təhlükəsizlik Nazirliyi vəhhabizmə dəstək olub. Hökumət haqlı mövqeyimizi görüb, bizə qarşı qisasçılıq mövqeyi tutub. Bizə nə qədər terrorçu damğası vurmaq istəsələr də, heç bir uğur əldə edə bilməyəcəklər. Hakimiyyət hamının tanıdığı din xadimini İŞİD-çiyə bənzədir. Gedən proseslərlə bağlı qətiyyən ruhdan düşməmişik. Telekanallarda din əhlini terrorist kimi qələmə verirlər. Bu, xalqa təhqirdir. Azərbaycanımız üçün hər şeyimizdən keçdiyimizi, torpaqlarımızın işğaldan azad olunması üçün canımızı belə verməyə hazır olduğumuzu bilirlər. Biz dövləti düzgün anlayırıq. Hakimiyyət və dövləti qarışdırmırıq. Bunları da narahat edən budur. Topu düzgün yerə tuşladığımızı yaxşı anlayırlar. Dini olduğu kimi təqdim edirik".

**İlahiyyatçı milli qəhrəman Mübariz İbrahimovun atasının onların əleyhinə etdiyi çıxışa bu cür reaksiya verdi:** "Təsəvvür edin ki, şəhid Mübarizin atasından bunlar istifadə etdilər. Şəhidimizlə bağlı mövqeyimiz bəlli idi. İkinci dəfə həbsdən çıxandan sonra Mübarizin qəbri üzərində çıxış edərkən təklif etdim ki, qardaş Türkiyə əhalisi öz əsgərlərinə Mehmetçik adı verdiyi kimi, biz də əsgərlərimizə Mübariz adı verək. Bilirəm ki, Mübarizin atasını məcburi formada danışdırıblar. Onu qınamıram. İstəmirəm ki, şəhid atası barədə nəsə desinlər. Sadəcə, deyərdim ki, bütün bunlar yolverilməzdir".

**Hacı Tale Ayətullah Həmədaninin əlini öpməsi ilə bağlı üzləşdiyi ittihamlara da toxundu:** "Bu məsələyə münasibət bildirmişik. Ayətullah Həmədani İslam alimidir. Dünyada din alimlərinin əllərindən öpürlər. Burada heç bir problem yoxdur. O, bizim həmyerlimizdir. Hər şeydən öncə azərbaycanlıdır. Bizdə insanlar var ki, Avropada öz həyat yoldaşlarının əllərini öpdürürlər. Xəzər.TV-nin göstərdiyi kadrı qeyd edərəm ki, Fətullah Gülənin də əlindən öpülür. Digər əl öpmələri də qeyd etmək olar. Bilmirlər ki, xalq arasında bizə qarşı necə nifrət hissi oyatsınlar. Qardaş Türkiyədə ağsaqqalın əlindən öpürlər. MHP sədrinin əlindən dəfələrlə öpüblər. Bu, alçalmaqdısa, o zaman türk xalqı alçalıb? Bizi qınayanlar qərəzli şəxslərdir. Bunlar hakimiyyətin işverənləridir".

**Hacı Tale bildirdi ki, Ayətullah Həmədanini Azərbaycana dəvət edən Allahşükür Paşazadə olub:** "O da bu barədə açıqlama verməlidir. Telekanallar hakimiyyətin sifarişini yerinə yetiriblər. Xalqdan üzr istəməlidirlər. Dövlətçiliyimizə qarşı zərbə vurublar. Bunlar hansı xislətə sahibdirlər ki, belə addım atıblar".



"Xalqımızın yolunda nəinki həbsə girməyə, hətta ölməyə də hazırıq"

**Dini qurumun rəhbəri yayılan məlum videodakı təhdidlərlə bağlı bunları dedi:** "Açığı deyim ki, həmin videonu görməmişəm. Mövqeyimiz sosial şəbəkələrdə və mətbuatda var. Ətrafımızda olan insanlara çağırış etmişik ki, zorakılığa əl atmayın, hüquqdan kənara çıxmayın. Mübarizəmiz sivil qaydada gedir. Çağırışları öz adımızdan edirik. Əgər kimlərsə çağırış edirlərsə, bu, təxribatdır".

**Tale Bağırzadə həbs olunma təhlükələrindən söz açdı:** "Bizi televiziyada terrorist kimi göstərdilər. Məhkəmə qərarı olmadan hər hansı bir şəxsi ittiham etmək hüquqa ziddir. İki dəfə həbs olunmuşam. Üçüncü həbsə də hazıram. Haqq yolundayıq. Bu yolda olduğumuza görə həbsxana, ölüm bizim üçün şərəfdir. Xalqımızın milli-mənəvi dəyərlərinə görə hər şeyə hazırıq. Bunun üçün ölməyə, zindana girməyə, hər cür işgəncələrə məruz qalmağa dəyər".

❑ Cavanşir ABBASLI

# Sosial şəbəkələrdə məzhəb savaşını kimlər salır?



Azər RƏŞİDOĞLU

**Son günlər yenə də inanclı insanların düşmən, vətən xaini kimi təqdim olunması adi hala çevrilib. Sanki bir qrup radikal islamçı dövlət çevrilişi etməyə cəhd göstərir.**

İstisna etmək olmaz ki, ölkədə radikal və təkfirçi dini qruplaşmalar mövcuddur. Lakin siyasi araşdırmaçılar əmindirlər ki, islamçıların təqibi dəyişikliklər baş verərsə, Azərbaycanda "islam təhlükəsi"nin baş alıb gedəcəyi barədə ictimai rəy formalaşdırmağa xidmət edir. Lakin artıq Qərb Azərbaycan hakimiyyətinin canfəşanlıqla qələmə verdiyi "islam təhlükəsi"ndən qorxuya düşmür. Əksinə, Qərb siyasi dairələri cəmiyyətdə nüfuzları artmaqda olan islamçılarla gələcək əməkdaşlıq perspektivlərini yenidən götür-qoy edirlər. Bu sahədə Qərbin böyük təcrübəsi də var. İstər Əfqanıstan, istərsə də ərəb ölkələrində bir sıra islamçı qruplar Qərbin maraq və mənafelərinə canfəşanlıqla xidmət edirlər.

Qərb ideoloqları anlayırlar ki, Azərbaycanda cəmiyyətin kəskin təbəqələşməsi sosial narazılıqlara səbəb olur ki, bu da yaxın gələcəkdə sosial partlayışların ola biləcəyinin xəbərçisidir. Deməli, narazılıqlar olacaqsa, etiraz dalğasının əsas hissəsi ola biləcək islamçılarla dil tapmaq lazım gələcək. Digər tərəfdən, Qərbyönlü, eyni zamanda sol ideyaların zəiflədiyi bir vaxtda protest elektoratını "sosial ədalət" və "islam sosializmi" ideyası ətrafında birləşdirmək cəlbedici görünür. Odur ki, artıq indidən islamçılarla işbirliyinə nail olmaq lazım gəlir.

Bir amili də nəzərə almaq lazım gəlir ki, din əleyhinə aparılan təqiblər radikal dindarların sayının artmasına rəvac verir. Sosial böhran yaşayan bir ölkədə isə bunun nələrə gətirib çıxara biləcəyini geniş şərh etməyə ehtiyac yoxdur.

Nəzərə alsaq ki, Azərbaycanda demokratiya müstəvisi dağıdılıb, insanlar səfalət içində yaşayırlar, radikal islamın siyasi amilə çevrilə biləcəyini də ehtimal edə bilərik.

Azərbaycanda demokratik qüvvələrin məhvi çox ağır nəticələr verməkdədir. Hakimiyyətin son illər ərzində din əleyhinə apardığı təqiblər radikal dindarların sayının artmasına rəvac verir. Nəzərə alsaq ki, ölkədə sosial böhran dərinləşə bilər, sosial partlayışların ola biləcəyini də proqnozlaşdıra bilərik. Bu isə yaxın gələcəkdə ölkədə etiraz dalğasının arta biləcəyinin xəbərçisidir. Bu zaman narazılıqlara islamçılar rəhbərlik edə bilərlər, iqtidar üçün isə onlarla dil tapmaq asan olmayacaq.

İslam inqilablarının qalib gəldiyi ölkələrə nəzər yetirsək, görərik ki, dini inqilabların hərəkətverici qüvvəsi olan ruhanilər Qərb təhsilli ziyalılarla birlikdə fəaliyyət göstəriblər. Azərbaycan ziyalısı ilə ruhanisi arasında isə bir uçurum mövcuddur. Bu isə kifayət qədər ciddi amildir. Bu amil islam inqilabı ideyasını sıradan çıxartsa da, dinin radikallaşmasına şərait yaradır. Radikallıq isə müsbət perspektiv vəd etmir.

Daha bir incə məqama da diqqət yetirmək lazım gəlir. Azərbaycanda etnik və dini müstəvidə savaş yaratmaq istəyənlər artıq açıq fəaliyyətə başlayıblar. Gərginlik durmadan artır. Artıq ölkədə siyasi ideologiyalar arasında "beyin fırtınası"ndan da söhbət getmir. Vəziyyət daha qəlizdir. Kənar baxışla görünən budur ki, bir qrup təkfirçi şəxs digər radikal-təkfirçi şəxslərə müharibə elan edib.

Son günlər bu qarşıdurma ən iyrənc formada özünü göstərməkdədir. Bütün "keyfiyyət" dəyişikliyi sosial şəbəkələrdəki müzakirələrə də təsirsiz ötüşməyib. Artıq sosial şəbəkələrdəki konstitusiya islahatları barədə mülahizələr deyil, "hansı məzhəbə mənsub şəxslərinin qadınlarının cariyə ola biləcəyi" müzakirə edilir. Deqradasiya göz önündədir. Baş verənlər yalnız cəmiyyət üçün fəsadlar yaratmır. Eyni zamanda iqtidarın özünün perspektivini qara rəngə boyayır.

Təkfirçi din cərəyanların əsas siyasi amilə çevrilmə tendensiyası fəsadların xəbərçisidir.

Azərbaycanda müşahidə edilən sələfi-şiə qarşıdurmasının gizlinlərinin isə din ilə ümumiyyətlə bağlılığı yoxdur. Şimal bölgəsində sələfi əqidəli insanların gün-gündən güclənməsi və onların arasında şiəçiliyə nifrət hisslərinin aşınması gələcəkdə Azərbaycanda dini müstəvidə baş verəcək qanlı regional toqquşmaların göstəricisi ola bilər. Öncələrdə vurğulamışdıq ki, ölkənin cənub bölgəsində də iki ölkənin təsiri aydın hiss olunur - İran və əlbəttə ki, əsas dolanışıq mənbəyi olan Rusiya. Bu bölgədə şiəliyin əsas amil olması isə gələcəkdə şimal və cənub bölgələrinin dini müstəvidə savaşının xəbərçisidir.

Artıq ölkə daxilində oturuşmuş vətəndaş sülhündən danışmaq imkansız görünür. Yaxın günlərdə Azərbaycanda dini və etnik qarşıdurmaların daha da dərinləşə biləcəyini ehtimal edə bilərik. Artıq işə düşmüş ssenarini yarıda dayandırmaq olduqca çətin görünür. Son günlər ölkədə şiə cameəsinə qarşı aparılan məqsədyönlü "qara piar"ın əsl mahiyyəti də məhz budur. Əhalinin əksəriyyətini qıcıqlandırmaq və məzhəb savaşına cəlb etmək istəyənlər yəqin ki, sifarişi də xaricdən alırlar. Odur ki, Azərbaycanda məzhəb savaşına çalışanlara qarşı ən ciddi formada mübarizə aparmağın vaxtı çatıb və bunu yalnız hakimiyyət deyil, bütün cəmiyyət aparmalıdır...

Yeni MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

# "Yeni mərhələnin lideri olmağa iddialıyam"

## Pənah Hüseyn: "Siyasi müxalifət üçün əsas məsələ yeni mərhələnin liderlərinin kim olacağıdır"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn parlament seçkiləri, seçkilərdən sonrakı proseslər barədə "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

***- Pənah bəy, bu seçkilərin sizə verdiyi ən mühüm cavab nə oldu?***

- Məncə, əsas sual - Azərbaycanda demokratiyanın gələcəyi varmı sualı cavabsız qaldı.

***- Sizi bu seçkidə sevindirən və məyus edən şeylər nə oldu?***

- Məni ən çox sevindirən də insanlar oldu, ən çox məyus edən də yenə adamlar oldu. 150-200 nəfərlik komanda ilə olduqca əlverişsiz şəraitdə 20 günlük bir siyasi həyəcan yarada bildik. Təmənnasız, fədakar komanda və 5-6 min öz iradəsi ilə gəlib Pənah Hüseynə səs verən vətəndaş... Sevindirən bu oldu. Məyus edən də yenə adamlar oldu. Məntəqələrin birinin sədri yaxşı tanıdığım bir cavan həkimdi. Pis oğlan da deyil. Seçkini də normal keçirib. Və mən həmin məntəqəni 185-in 155-ə udmuşam. Protokol da yazıb verib. Bir qədər sonra ona zəng ediblər ki, maşınına narkotik atacaqlar. Mənə bildirdilər ki, həkimin qorxudan dili tutulub, özündən gedib. Dedim, protokolu qaytaran verin özünə, istədiyi kimi dəyişdirsin. O da dəyişdirib elədi 170-in 171. Namusuma and içirəm ki, belə olub.

Başqa bir faktı deyim. Anadan olduğum kənddə məntəqə sədri, məktəbin direktoru mənim ən yaxın uşaqlıq dostum olub. Mənim xeyrimə olan nəticəni uzun müddət zəng edib dairəyə bildirə bilməyib. Dili açılmırmış. Katib Cəlal müəllim onu birtəhər özünə gətirib. Yaxud Suqovuşan məntəqəsində saat yarım bizimlə mehriban söhbət edən 80-ə yaxın yaşı, üstəlik, Hacı olduğu deyilən məntəqə katibini çağırdılar arxa otağa, gəlib birdən-birə qəfildən qışqırmağa başladı ki, ayə, məni niyə döyürsünüz?! Keçdi göz görəsi şərləməyə. Məni məyus edən belə şeylərdi. Hər bir cəmiyyətin, dövlətin gücü, qüdrəti təkcə ordu, iqtisadi güc deyil, həm də bunlardan az olmayaraq ayrı-ayrı fərdlərin mənəvi gücüdü, əxlaqlı olması, öz ləyaqətini bilməsidi, özünü tanımasıdı. Yəni fərdlərin mənəviyyatı dövlətin milli təhlükəsizlik məsələsidir. Bu deqradasiya edəndə, əvvəl-axır fəlakət qaçılmaz olur. İnsanları bu hala gətirmək, bu hala salmaq olmaz. Ən böyük cinayətlərdən biri budu.

***- Adamlar nə üçün qorxurlar? Sabirabadda yəni elə böyük basqı var? Seçki vaxtı hüquq-mühafizə orqanlarının təzyiqi bu qədər güclü idi?***

- Bizim seçkilərdə hər mənada gözlənilməz olan hallardan biri o oldu ki, hüquq-mühafizə orqanları, polis özünü çox korrekt apardı. İnanılmaz görünə bilər, ancaq həqiqətən polisin bütün seçki müddətində prosesə qanunsuz müdaxiləsi kimi dəyərləndirə biləcəyimiz bir fakt belə müşahidə olunmadı. Məsələ formalaşmış ümumi sosial psixoloji mühitdədir. Bilirsiniz, hər bir adamın, hətta "JEK"də təmizlikçinin, məktəbdə müəllimin, xəstəxanada həkimin və s. hər şəxsin ona pislik edə biləcək qorxduğu bir şəxs var. Və bu o demək deyil ki, həmin qorxudan subyekt iri vəzifəli şəxsdir. Mən həmişə bu fenomeni başa düşmək üçün siçan, pişik və şir misalını çəkirəm. Siz heç şirdən qorxan siçan təsəvvür edirsiniz? Siçanlar şiri heç vecinə də almır. Onun qorxduğu pişikdir. Və hər kəsin qorxduğu öz pişiyi var. Hər pişik də kiminsə qarşısında özünü siçan hiss edir. Vəziyyət o vaxt dəyişər ki, şirin nəriltisi gəlsin və pişik yoxa çıxsın. Adamlar da bilsin ki, sən demə, onlar siçan, pişik deyil, adamdırlar. Ancaq şirlər bir qayda olaraq mürgü döyürlər. Həyat belədi.

***- Pənah bəy, seçkilər bitdi, müxalifət mandatsız qaldı. Sizin də içində olduğunuz hakimiyyətlə dialoq kursu bitdimi?***

- Bu siyasi kurs seçkilərə hesablanmamışdı və bu səbəbdən də bu seçki ilə də başa çatmır. Mən son dövrdə dəfələrlə təkrar etmişəm, yenə də edim: bu seçki bizim üçün strateji deyil, taktiki əhəmiyyətə malik idi. Odur ki, başlanan kurs, əlbəttə ki, seçkilərin bu şəkildə keçirilməsinin və nəticələrinin yaratdığı siyasi ortam nəzərə alınmaqla, korrektə edilməklə davam etdirilməlidir. Ancaq bu da həqiqətdir ki, 1 noyabr seçkiləri bu prosesi ciddi şəkildə zədələmədi desək doğru olmaz. Həm ictimai rəy, bu kursun effektivliyinə və real nəticələr verəcəyinə olan inam ciddi şəkildə sarsıldı, həm də siyasi müxalifətdə bu kursun səmərəliliyinə olan gözləntilər özünü doğrultmadı. Odur ki, biz indi desək ki, heç nə olmayıb, buna heç kəs inanmaz. Siyasi-psixoloji diskomfort, gərginlik, məyusluq, ruhdandüşmə əlamətləri təbii olaraq açıq görünür. Hər halda, bir müddət reabilitasiya lazım gələcək.

***- Yeni tərkibdə Milli Məclisə münasibətiniz nədən ibarətdir? Müxalifət bu Milli Məclisin qeyri-legitim olduğunu və onu tanımadıqlarını bəyan etdi.***

- Əvvəlki Milli Məclisə münasibətim necə idisə, bu tərkibə də münasibətim eynidir. Çünki mahiyyətcə nə seçkilərin keçirilməsi üsulunda, nə də fərdi tərkibdə elə bir keyfiyyət dəyişikliyi baş verməyib. Odur ki, "bu Milli Məclisi tanıyırsınız, tanımırsınız", sualını mən, açığı, aktual hesab etmirəm. Əlbəttə ki, seçkini azad, ədalətli, demokratik seçki kimi tanımıram və hesab edirəm ki, onun tərkibi də real siyasi qüvvələr nisbətini və xalqın azad ifadə olunmuş siyasi iradəsini əks etdirmir. Lakin ortada Milli Məclis adına bir qurum, bir tərkib var, biz onunla yaşamaqda və işləməkdə davam edirik. Legitimlik məsələsi də elə.

***- İqtidarın nə üçün bu seçkilərdə hətta imitasiyon demokratiya modelindən belə imtinası necə izah edilə bilər?***

- Biz bəlkə də istəklərimizi ifadə edirik. Ancaq hər halda, deyirik ki, bu seçkilər baş vermiş situasiya iqtidar daxilindəki islahat, dəyişiklik, imitasiya istəyən qüvvələrlə sərt mühafizəkar avtoritar kurs tərəfdarlarının arasındakı mübarizənin, daha dəqiqi, ikincilərin təntənəsinin göstəricisidir. Nə üçün belə oldu? Müxtəlif mülahizələr irəli sürmək olar. Lakin fakt ortadadır ki, imitasiyaçılar məğlub duruma düşüblər. Bu vəziyyət nə vaxta qədər davam edəcək? Cavab vermək elə də sadə məsələ deyil. Görünən odur ki, çətinliklərin, gərginliklərin yaşanacağının ehtimal olunduğu yaxın bir neçə ildə iqtidar eksperimentlərə getməkdən çəkinib, yaxud iqtidarı inandırıblar ki, bu, problem yarada bilər. Məsələn, mən bunun əksini düşünürəm və imkanım olsaydı, təklif edərdim ki, fərqli yanaşma qəbul edilsin. Çünki regionda və ölkədə siyasi, geosiyasi və sosial-iqtisadi vəziyyətin pisləşəcəyinin labüd göründüyü bir vaxtda sistem çeviklik göstərib dəyişiklik etməyə qadir olmasa, gərginliklərdən yaxa qurtara bilməyəcək.

***- Əvvəllər parlament seçkilərinin antidemokratik keçirilməsi seçkidən dərhal sonra müxalifətdə yeni birliklərin yaranmasına, mitinqlərin keçirilməsinə təkan verirdi. 1 noyabr seçkilərindən sonra bunların heç biri müşahidə olunmur. Bunun səbəbi nədir?***

- Siyasi müxalifət arasındakı ziddiyyətlər həm taktiki, ideoloji, eləcə də psixoloji səviyyədə heç vaxt belə dərinə getməyib. Bu seçkiyə münasibətdə də hələ seçkilərdən xeyli öncədən kəskin fikir ayrılıqları oldu. Seçkiyə getmək və ya getməmək məsələsində bu mövqelərdə olanlar arasında bir-birinə qarşı kəskin siyasi və şəxsi ittihamlar irəli sürüldü. Seçkilərdən öncə yaranmış bu psixoloji baryer seçkidən sonrakı dövrə də təsirini göstərir. Bu psixoloji baryeri keçmək elə də asan deyil. Lakin vəziyyət dəyişə bilər. Siyasi müxalifətin geniş funksional birliyinin yaranması, müəyyən maraqlar ətrafında birləşmək ideyası hələ 1 noyabr olmamışdan əvvəl səslənməyə başladı. Seçkilərdən sonra da siyasi partiyaların birləşdirilməsi, hərəkat tipli bir birləşmənin olacağı mövzusunda ideyalar eşidilir. Hər halda, mən güman edirəm ki, siyasi müxalifətdəki münasibətlərdə kritik hədd keçilib, proses dibə çatıb. Bundan sonra yaxınlaşma, müəyyən məsələlərin ən azı müzakirəsi məsələsi mümkündür. Bunun ilkin əlamətləri də var. Fikrimcə, yaxın günlərdə bu istiqamətdə müəyyən addımların atılması üçün başlanmış məsləhətləşmələr davam edəcək.



## "Avropa Məhkəməsinə şikayət etməyəcəyəm"

***- Bu istiqamətdə nə gözlənilə bilər?***

- İndiki ziddiyyətləri simvolizə edən formatlar aradan qalxmalıdır. Yaxud transformasiya edilməlidir ki, müəyyən təşkilati maneələr də olmasın.

***- Milli Şuranı nəzərdə tutursunuz?***

- Həm də.

***- Bir çoxları müxalifətin seçkilərlə bağlı bu vəziyyətini onun zəifləyib, sosial bazasını itirməsi ilə izah edirlər.***

- Siyasi müxalifət, onun institutları zəifləyibsə də son vaxtlar ölkədə yaranan sosial-iqtisadi böhran və bu böhranın iqtidar üçün yaratdığı problemlər bunu müəyyən qədər əvəzləyir. Artıq iqtidar üçün də problemlər mövcuddur və bunlar günü-gündən sürətlə artır. Bu da müxalifətin zəifliyini və onun imkanlarının məhdudluğunu kompensasiya edir, onu gücləndirir. Mənim fikrimcə, siyasi müxalifətdə böhran özünün dibinə çatıb. Bundan sonrakı mərhələdə biz siyasi müxalifətin sosial dayaqlarının, fəaliyyət imkanlarının artmasını müşahidə edəcəyik. Proseslər buna imkan verir. Siyasi müxalifət üçün əsas məsələ yeni mərhələnin liderlərinin, təşkilatlarının kim olacağıdır, tapılması, meydana çıxmasıdır.

***- Yeni mərhələnin liderləri, lider təşkilatları kimlər olacaq?***

- Seçki kampaniyasında gəldiyim qənaət ondan ibarət oldu ki, resursları hərəkətə gətirmək imkanları var. Bu baxımdan mənim demokratik qüvvələrin perspektivlərinə bu seçkilərdə nəinki inamım azalmadı, əksinə, bu seçki kampaniyasından sonra daha da artdı. Konkret şəxslər barədə danışmaq istəməzdim. Lider təşkilat isə yeni, böyük ehtimalla hərəkat tipli təşkilat olacaq. Şəxslərə gəldikdə isə ... (soyuq-soyuq gülümsəyir - E. S.) bu yeni mərhələnin liderlərindən biri olmağa özüm də iddialıyam.

***- Seçkilərdə ənənəvi müxalifət təşkilatlarından heç kimin parlamentə düşməməsi seçkini boykot edənlərin əlinə özlərinin haqlı mövqedə olduqlarını bildirmələri üçün fürsət verib.***

- Hər bir kəsin mövqeyinə hörmətlə yanaşmaq lazımdır. Amma fikrimcə, məhz seçkinin özü göstərdi ki, bu, yanlış idi. Boykot taktikası seçkilər dövründə siyasi fəallığa zərər vurdu və bu, hakimiyyətin xeyrinə işlədi. Bizim yeganə resursumuz kütlələrin siyasi fəallığıdır. Bu resursun ortaya çıxmasını əngəlləyən istənilən hərəkət əlbəttə ki, zərərli sayılmalıdır. Boykot mövqeyi seçkiyə qatılanları zəiflətdi. Məsələn, mən hesab edirəm ki, AXCP və Müsavat Partiyası boykot taktikası seçməsəydi, mən ən azı 1500 səs artıq alardım. Boykot boykotçuların özü üçün də zərərli oldu. Boykot taktikasının zərərdən başqa müsbət nəsə verdiyi varsa, ortalığa qoyulsun.

***- Müsavatla AXCP-nin seçkiləri boykot addımını eyni taktika sayırsınız?***

- Mənim üçün AXCP-nin taktikası daha anlaşılan idi. Müsavat Partiyasının taktikası, o cümlədən seçkiyə iki gün qalmış boykota getmək, açığı, hələ də mənə axıra qədər aydın deyil.

***- Əvvəlki seçkilərdən sonra Avropa Məhkəməsinə müraciət etdiyiniz hallar olub. Bəs bu dəfə necə, Avropa Məhkəməsinə üz tutmaq niyyətiniz varmı?***

- Bilirsiniz ki, mən seçkinin nəticələrindən Mərkəzi Seçki Komissiyasına şikayət eləmişəm. Şikayətim müsbət həll olunmayacaqsa, məhkəməyə müraciət edəcəyəm. Amma bu dəfə Avropa Məhkəməsinə şikayət etməmək qərarına gəlmişəm. Açığı, yenə heç nəyi dəyişdirməyəcək qərarı və 10 min avronu almaq üçün 5-6 il gözləməyə nə vaxtım, nə də həvəsim var.

***- Bu, inamsızlıqdan irəli gəlir?***

- Qətiyyən. İndiyə qədər Avropa Məhkəməsinə etdiyim bütün müraciətlərə baxılıb və mən həmişə udmuşam. İndi də seçkilərlə bağlı əlimdə olan sübut və dəlillər elədir ki, Avropa Məhkəməsinə müraciət etsəm, yenə udacağam. Bu dəfə Avropa Məhkəməsinə müraciət etməklə simvolik şəkildə onu ifadə eləmək istəyirəm ki, həqiqətin, hüquqlarımın, azadlığımın bərpası üçün Avropaya yox, xalqa, cəmiyyətə üz tutacam. Strasburqun hökmünü yox, xalqın hökmünü almağa cəhd edəcəm. Məhz bunun simvolik ifadəsi olaraq qərara gəlmişəm ki, bu dəfə Avropa Məhkəməsinə şikayət etməyim. Biz beş il sonra kompensasiya almaq üçün seçkiyə girmədik. Qabaqdakı illəri cəmiyyətdə ciddi dəyişikliklər eləmək, dəyişiklikləri cəmiyyətimizin gücü ilə həyata keçirmək üçün düşünməli və çalışmalıyam. Mən düşünürəm və çalışıram.

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

## Akif Çovdarovun gizli həbsxana saxladığı üzə çıxdı



# MTN generalının "Quantanamosu" - şok

### Akif Çovdarovun özünün ayrıca adam oğurluğu ilə məşğul olan böyük bir dəstəsi və bu dəstənin MTN-dən kənarda, Bakının heç kimin ağlına gəlməyəcək yerində gizli həbsxanası da olub; **Elçin Behbudov:** "3 metr yerin dərinliyində, havasız, sanitar qovşağı olmayan dəhşətli bir yer idi"

**2 gün əvvəl tutduğu vəzifədən azad olunan Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun gizli həbsxana saxladığı haqda məlumat var. Adı 2 jurnalistə qarşı sui-qəsddə hallanan A.Çovdarovun MTN binasından kənarda yerləşən gizli həbsxanasından onlarla vətəndaşın keçdiyi iddia olunur.**

Strateq.az saytı yazır ki, indiyədək həbs olunan MTN əməkdaşlarının əksəriyyəti qeyri-qanuni göstərişlərin bir çoxunu birbaşa general-mayor Çovdarovdan aldıqları haqda ifadələr veriblər və artıq onun həbsi üçün kifayət qədər dəlil-sübutlar toplanıb. Eyni zamanda təhlükəsizlik məqsədi ilə adları hələlik cəmiyyətə açıqlanmayan xeyli sayda iş adamı da Baş Prokurorluğa və Prezident Administrasiyasına ünvanladıqları şikayətlərində birbaşa məhz general Akif Çovdarovun onlara hədə-qorxu gələrək, milyonlarla vəsaitlərini və əmlaklarını əllərindən aldığını bildiriblər.

Məlumata görə, həm bu adamların, həm də həbs olunan MTN əməkdaşlarının dindirilməsi zamanı ortaya sensasiya sayılacaq başqa bir mühüm fakt da çıxıb. Bəlli olub ki, Çovdarovun özünün ayrıca adam oğurluğu ilə məşğul olan böyük bir dəstəsi və bu dəstənin MTN-dən kənarda, Bakının heç kimin ağlına gəlməyəcək yerində gizli həbsxanası da olub. Məlum olub ki, MTN-dəki məlum dəstə pul almaq məqsədilə keçirdikləri əməliyyatlar barədə informasiyanın kənara sızmaması üçün xeyli sayda adamı - xüsusən də ayrı-ayrı vəzifəli şəxslərlə qohumluq əlaqələri olan imkanlı şəxsləri məhz MTN binasından kənarda yerləşən bu gizli həbsxanaya gətirərək, əvvəlcədən dinləmə və izləmə vasitəsilə topladıqları rüsvayedici kompromatları nümayiş etdirir, sonra da qarşılığında külli miqdarda pul tələb edirmişlər. Həmin şəxslər də dinməzcə tələb olunanı verib canlarını qurtarır, hara gətirildikləri, hansı qurum tərəfindən saxlandıqları barədə belə nəinki hər hansı məlumata, hətta cüzi təsəvvürə də malik olmurmuşlar. Əldə edilən məlumatlara görə, Çovdarova bu işlərin görülməsində təkcə MTN-dəki dəstəsi yox, Rusiya və Gürcüstanın "cinayət aləmi"ndəki şəbəkəsi də böyük köməklik göstərib və faktiki, onlar bütün bu qaranlıq işlərdə əlbir fəaliyyət göstəriblər.

Azərbaycanda zaman-zaman gizli həbsxanaların varlığı haqda iddialar ortaya çıxıb. Həmin iddialardan təsdiq olunanları da var. Məsələn, hazırda ömürlük məhbus olaraq MTN-də saxlanılan DİN-in sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov Keşlə qəsəbəsində yerləşən villasının həyətində belə bir həbsxana saxlayıb. H.Məmmədovun məhkəməsində məlum olub ki, oğurlanan şəxslər zirzəmidə yerləşən həmin gizli həbsxanada saxlanılıblar. Orada saxlanılanlardan birinin qulağı kəsilərək atasına göndərilib.

Bundan başqa, Xüsusi İdarənin rəisi olmuş Elman Qəmbərovun da gizli həbsxana saxladığı haqda məlumatlar vardı. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov 1995-ci ildə həmin həbsxanada saxlanılmışdı.

**E.Behbudov A.Çovdarovun gizli həbsxana saxlamasını mətbuatdan öyrəndiyini deyir:** "Gizli həbsxana dövlətin nəzarətindən kənar, Baş Prokurorluğun icazəsi olmadan qanunazidd saxlama yeridir. Akif Çovdarovun belə bir həbsxana saxlamasını mətbuatdan oxumuşam. Vaxtilə mənim özüm də belə bir həbsxanada olmuşam. Xüsusi İdarənin rəisi Elman Qəmbərov məni ora işgəncə vermək üçün saldırmışdı. Həmin gizli həbsxana Xüsusi İdarənin zirzəmisində idi. 3 metr yerin dərinliyində, havasız, sanitar qovşağı olmayan dəhşətli bir yer idi. İşıq düşmürdü, nəmişlik iyindən boğulurdum. Ora işgəncə dəzgahı idi. İnanmıram ki, deyilən yer MTN-dədir. MTN-də gizli həbsxana yoxdur. Ola bilər ki, haradasa kənar bir yerdə olub. Əgər belə bir yer saxlayıblarsa, bu, vəzifə səlahiyyətlərini aşma, insanların hüquq və azadlıqlarını məhdudlaşdırmaqdır. Bu böyük bir cinayətdir. Mən saxlanıldığım Xüsusi İdarənin gizli həbsxanasından azad olunandan sonra ora dəfələrlə baş çəkmişəm. Oranın qapısı möhürlənmiş vəziyyətdə olub. Ora dəhşət idi".

**E.Behbudov deyir ki, belə bir həbsxananın saxlanılması özbaşınalıqdır və əgər belə bir fakt mövcuddursa, həmin gizli həbsxananı yaradan buna görə qanun qarşısında cavab verməlidir:** "Belə bir gizli həbsxananın yaradılması heç kimi, dövlətin qanunlarını saymamaqdır. Özbaşınalıqdır, vəzifə səlahiyyətlərini aşmaqla insanlara işgəncə verilmək üçün nəzərdə tutulan bir yerdir. Oranı başqa niyyətlə yaratmayıblar. Belə bir yer olubsa, işgəncə yuvası kimi istifadə edilib".

E.Behbudov A.Çovdarovun gizli həbsxana saxlaması haqda məlumatlar təsdiqlənəcəyi halda beynəlxalq təşkilatlara təqdim edəcəyi hesabatlarda bu haqda qeydlərin olacağını da söyləyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

## MTN-in daha bir məsul əməkdaşı saxlanıldı

**Milli Təhlükəsizlik Nazirliyinin daha bir məsul əməkdaşı saxlanılıb. Trend-in əldə etdiyi məlumata görə, MTN-nin Baş Əks Kəşfiyyat İdarəsinin şöbə rəisi polkovnik Mirəziz Əsgərov daxil olan şikayətlər əsasında Baş Prokurorluq tərəfindən saxlanılıb. Hazırda araşdırma aparılır.**



Tofiq Yaqublu

## Avropa Məhkəməsinin qərarı Tofiq Yaqubluya nə vəd edir?

### Beynəlxalq qurumun indiyə qədər verdiyi bu cür qərarlar gözlənilən effekti verməyib; başqan müavininin ailəsi ümidsiz olsa da, hüquq müdafiəçisi nikbindir

**Ötən həftə Avropa İnsan Haqları Məhkəməsi (AİHM) Müsavat başqanının həbsdəki müavini Tofiq Yaqublunun dərhal azadlığa buraxılması barədə qərar çıxardı. Qərarda İsmayıllı hadisələrinə görə 5 il müddətinə azadlıqdan məhrum edilən vicdan məhbusuna 24 min avro ödənilməsi də tələb olunur.**

Qeyd edək ki, bundan öncə də AİHM jurnalist Eynulla Fətullayev, hazırda həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov və REAL sədri İlqar Məmmədov barədə də bu cür qərar çıxarıb. Amma şahidi olduğumuz praktika onu deməyə əsas verir ki, hakimiyyət daha çox bu cür qərarlardan sonra direniş göstərir. İndiyə qədər AİHM-in siyasi məhbuslarla bağlı qəbul etdiyi qərarın onların azadlığa buraxılmalarına bir o qədər də ciddi təsiri olmayıb. Təkcə Eynulla Fətullayevi misal çəkmək kifayət edər. Məhz AİHM-in onun barəsindəki qərarından sonra həbsxanada ona qarşı narkotik ittihamı da irəli sürülmüşdü. Əli İnsanov və İlqar Məmmədovun da hazırda həbsdə olduqlarını nəzərə alsaq, deyiklərimiz öz təsdiqini tapır...

Maraqlıdır, T.Yaqublu barəsindəki qərar onun azadlığa buraxılmasına təsir edəcəkmi?

Başqan müavininin qızı **Nigar Yaqublu atasının bu qərardan sonra azadlığa qovuşacağına inanmır:** "Sözsüz ki, qərarın bizim üçün böyük əhəmiyyəti var. Bunu Tofiq Yaqublunun ilk qələbəsi saymaq olar. Azərbaycanda heç bir məhkəmə sistemindən ədalətli qərar gözləmirik. Yalnız ümidimiz Avropa Məhkəməsi idi. Gecikmiş olsa da, Avropa Məhkəməsi ümidimizi doğrultdu. Buna görə təşəkkür edirik. Ən doğru qərarı verdi. Qərarın icra olunması məsələsinə gəlincə, o qədər də sadəlövh deyiləm. Çünki həmin qərar İlqar Məmmədov və Əli İnsanov barəsində də var. Həmin qərarlar icra olunmamış qalır. Bu da əsas verir ki, Tofiq Yaqublunun yaxınlarda azadlığa çıxmasına ümid etmək olmaz".

**T.Yaqublunun vəkili Nemət Kərimli qərar barədə bunları dedi:** "Avropa Məhkəməsinə verilən şikayət Avropa İnsan Hüquqları haqqında Konvensiyanın 5-ci maddəsi ilə bağlı idi. Azadlıq hüququnun toxunulmazlığı ilə əlaqədar. Qərar onu sübut etdi ki, Tofiq bəyin həbsi qanunsuzdur. Onun azadlıq hüququnun pozulması tanındı. 24 min avro dəyərində kompensasiya nəzərdə tutuldu. Hakimiyyət bu cür qərarları icra etməkdən imtina edir. İlqar Məmmədov nümunəsini xatırlayaq. Hətta onunla bağlı Nazirlər Kabinetinin də qərarı var. Hesab etmirəm ki, qərar təsir edəcək".

**Hüquq müdafiəçisi Arzu Abdullayeva qərarın verdiyi müsbət amillərdən danışdı:** "Bu qərara çox sevindim. Bu qərar ona görə yaxşıdır ki, biz artıq qanuni çərçivədə onu daha çox müdafiə edə bilərik. Onun azadlığa çıxması məsələsini ortaya qoya bilərik. Artıq İlqar Məmmədov üçün kampaniyaya başlayırıq. Tofiq Yaqublu məsələsini də birgə gündəmə gətirəcəyik. İnsan haqları ilə bağlı noyabrın 10-da dəyirmi masa olacaq. Yeni qərarımızı orada bəyan edəcəyik. Açığı, indiyə qədər belə qərarlara bir o qədər də əhəmiyyət verilmirdi. Amma indi Avropa Şurası ilə Azərbaycanın münasibəti dəyişməlidir. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı qərarı olub. Azərbaycan hakimiyyəti elan edib ki, bu bizim qələbəmizdir. Vəziyyət dəyişəcək. İqtidarın münasibətində də dəyişiklik olacaq. Beynəlxalq təşkilatlar bu qərardan sonra daha fəal olmalıdırlar. Bu, artıq onların üzərlərinə götürdükləri bir öhdəlikdir. Belə bir qərar verildiyi zaman quruma daxil olan ölkələr qərarı dəstəkləyirlər. Çünki belə bir öhdəlik götürüblər".

Qeyd edək ki, Tofiq Yaqublu REAL sədri İlqar Məmmədovla birlikdə 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə həbs ediliblər. İ.Məmmədov 7, T.Yaqublu isə 5 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015



# Yüz fəal tapılsa...

Hüseynbala SƏLİMOV

**Bir vaxtlar ruhi xəstəxanada bir qadın elə hey A.Eynşteyni öldürəcəyini deyirmiş. Həkimlər axır ki, bu xəbəri Eynşteynə çatdırırlar. Eynşteyn də durub xəstəxanaya gəlir və həmin qadınla görüşür. Görüşdən sonra həkimlər qadından nəsə öyrənməyə və bu hadisənin motivlərini araşdırmağa çalışırlar. Qadın isə təkcə bir cümlə deyir: "Onun kədərli gözləri vardı..."**

Heç özüm də bilmirəm Rusiyanın 100 aparıcı siyasətçisinin siyahısına baxanda nədən bu əhvalat yadıma düşdü? Amma yox, bircə anlığa 100 fəal və aparıcı siyasətçi mənə həmin ruhi qadın kimi, Rusiya isə Eynşteyn kimi göründü - 100 xəstə bir Rusiyanı öldürmək istəyir. Rusiyanın isə çox, olduqca kədərli gözləri var...

Bəli, ruslar Rusiyanı həmişə qadına bənzədiblər və elə indi də bənzədirlər. Amma bu adamlar heç vaxt həmin "qadın"ın - Rusiyanın gözlərinə baxmağa cürət etmirlər. Baxsaydılar yəqin ki, siyasətlə məşğul olmağı birdəfəlik buraxar və ya tamam dəyişərdilər...

Rusiyanın siyasətçiyə ehtiyacı varmı? 100 "aparıcı siyasətçi"nin olmağına rəğmən bu ölkənin yüz əsl vətənpərvər siyasətçiyə həqiqətən də böyük ehtiyacı var! Həm də məni bir sual götürdü: axı bu yüz siyasətçi haradan çıxdı? Ölkədə necə yüz siyasətçi ola bilər ki, respondentlərin 90 faizi yalnız bircə nəfəri - Vladimir Putini dəstəkləyir?

Elə qəribəsi də budur... Deyirəm, nə yaxşı ki, bizdə belə siyahılar dərc olunmur. Yox, bizimkilər belə etməz və etmir də. Onlar heç kimin siyasətçi və ictimai xadim qəlibində qəbul olunmasına imkan vermirlər. Sovetlərin vaxtında ideoloji iş adamları elə qızışırdılar ki, qayıdıb deyirdilər ki, sovet cəmiyyətində ümumiyyətlə seks yoxdur! Onlardan "Bəs uşaqlar haradan peyda olur?" soruşanda da yəqin qayıdırlarmış ki, uşaqları leyləklər gətirir... O səbəbdən də yəqin indi bizimkilərdən soruşsan ki, sizdə neçə siyasətçi var, bir səslə deyəcəklər ki, bizdə ümumiyyətlə siyasət və siyasətçi yoxdur...

Bəli, bizdə siyasət və siyasətçilər yoxdur, əvəzində "xalqın qulluqçuları" var. Əslində "qulluqçu" olmaq bir o qədər də ürəkaçan məşğuliyyət olmamalıdır. Amma gəl, Rusiyada da, biz də bu siyasi-sosial rolun üstündə o qədər əsirlər ki, onu bir kimsəyə güzəştə getmək istəmirlər...

Elə bu səbəbdən də özünüzə əziyyət verməyin, bizdə yüz nədir, heç on siyasətçi tapa bilməzsən. Elə Rusiyada da yüz siyasətçi məsələsi bir fiksiyadır.

Orada deyilənlərə də inanmaq lazım deyil...

Yüz siyasətçi nədir, Rusiyada da, burada da əsl yüz siyasi fəal tapılsaydı böyük iş olardı! Demək olar ki, yoxdur onlar. Torpaq yetişdirmir? Yox, torpaq yetişdirməyinə yetişdirir, amma milli bağbanlar çoxdur, görən kimi elə dərhal dartıb kötüyündən qoparırlar...

Bəli, ona görə də əgər Azərbaycanı da bir canlıya bənzətmək mümkün olsaydı onda ilk nəzərə çarpan detal onun gözləri, bəli, kədərli gözləri olardı. Bəlkə də kədərdən də bir az artıq təlaş sezilərdi o gözlərdə...

Belə təlaşı mən rus rəssamı A.Vrubelin bir rəsmində görmüşdüm. Həmin rəsm səhv etmirəmsə, 20 - ci əsrin əvvəllərində çəkilmişdi. İlahi, necə də real və təsirli təlaş vardı həmin rəsmin gözlərində?!.

İndi Rusiya guya ki, özünün yüz aparıcı siyasətçisi ilə fəxr duya bilər. Amma dedim ki, bu, bir fiksiyadır...

Bir vaxtlar hər şey başqa cür idi. Həm Rusiyada, həm də Azərbaycanda. Bizdə bu, çox az, olduqca az çəkdi, heç "ah" deməyə macal tapmadıq ki, bir də gördük keçmiş kommunistlər qayıdıb öz yerlərini tutublar. Rusiyada isə bir az çox çəkdi azadlıq illəri...

B.Yeltsinə rusiyalı jurnalistlər çar Boris deyirdilər. İndi deyin görüm V.Putinə çar Putin deyə bilərsinizmi? Gördünüzmü əsl çar necə olur?!.

Bizə gəldikdə isə bizdən danışmağın ümumiyyətlə mənası yoxdur. Adama ən çox bilirsiniz nə yer eləyir? Bu qədər əlləşib-vuruşmağın heç mənası vardımı? Bəli, onsuz da SSRİ buraxılacaqdı, Azərbaycan da Türkmənistan və Özbəkistan kimi müstəqil olacaqdı, hətta sonradan dönüb lap elə Türkmənistan və Özbəkistan olacaqdı! Biz niyə tələsirdik? Niyə gəncliyimizi hədər yerə sərf etdik, öz işimizlə məşğul olmadıq? Əvvəldən bilmək lazım idi ki, Azərbaycan adlı layihədə siyasətçi və ictimaiyyətçi vakansiyaları nəzərdə tutulmayıb...

Biz isə inanmadıq... Nə deyilənə inandıq, nə yazılana. Axırda da gəlib bu günə düşdük: yüz siyasətçi nədir, indi heç yüz fəal da yoxdur...

**Sürücülər bu yolu cəhənnəm keçidi adlandırırlar. Elə bir maşın yoxdur ki, bu yolu keçdikdən sonra təmir məntəqəsinə yollanmasın. Hətta 4 ildir müharibənin içərisində olan Suriyada belə yollara rast gəlinmir. Avtomobillərin qəniminə çevrilən Masallı-Lənkəran yolundakı fəlakətli vəziyyət illərdir davam edir.**

# Cənub zonasının "cəhənnəm keçidi"ndən reportaj

## Masallı-Lənkəran yolunun 38 kilometrlik ərazisi fəlakət içindədir; prezidentin ayırdığı milyonlarla vəsait kimlərin cibinə axır; cənublular nəqliyyat naziri Ziya Məmmədova "Yeni Müsavat" vasitəsilə ismarış göndərdi

Həm yerli "Cənub" televiziyası dəfələrlə problemlə bağlı süjet hazırlayıb, həm hər 2 bölgənin sakinləri tərəfindən Nəqliyyat Nazirliyinə saysız-hesabsız müraciətlər ünvanlanıb. Di gəl ki, Masallıdan Lənkərana olan 38 kilometrlik həmin yolda acınacaqlı vəziyyət dəyişməyib. Sürücülər hər gün eyni əzabı yaşayır, aidiyyəti qurumlar da bu əzaba son qoymamaq fikrindən daşınmır.

"Cənab nazir Ziya Məmmədov məzuniyyətdən də qayıtdı, xeyri olmadı. Dərdimizi kimə deyək, ay qardaş, bilmirik. Maşının təkərlərini dəyişməkdən, "resor" almaqdan yorulmuşam. Hər bu yoldan keçəndə "peredok"da problem yaranır. Başım çıxmır ki, yol istismar idarəsi hara baxır? İşi 41 saylı Masallı Yol İstismar İdarəsinə tapşırmışdılar. Onlar da başdansovdu edib, getdilər.

Hər dəfə deyirlər ki, prezident yolun çəkilişinə 3 milyon ayırdı, sonra bir az keçir, yenə xəbər yayırlar ki, 7 milyon ayırdı. Bəs bu yol niyə düzəlmir?", - Lüvəsər kənd sakini Bahadır Seyidov bizimlə söhbətində belə deyir.

**Bakı-Lənkəran yolunda taksi sürücüsü işləyən Bahadır qazandığını maşının təmirinə xərcləməkdən cana doyub. Onun sözlərinə görə, Masallı-Lənkəran yolundakı bərbad vəziyyət uzun müddətdir yaranıb:**

"A kişi, nə qədər maşını ustaya aparmaq olar? Bir bu yola bax: çala-çuxur, darmadağın, yol dağılıb gedib. Prezident yolun təmirinə vəsait ayırıb. Ancaq Nəqliyyat Nazirliyi və 41 saylı Masallı Yol İstismar İdarəsi işini görmür".

Sürücülərin sözlərinə görə, bu yoldan dövlət məmurları da keçirlər, cənub zonasına səfər edən nazirlər də. Amma ya bu ərazidən gözüyumulu keçirlər, ya da görməzdən gəlirlər.

Bir müddət əvvəl 41 saylı Masallı Yol İstismar İdarəsinin baş mühəndisi Məmmədağa Dadaşov tender şirkətini ittiham etmişdi. O, problemi İpək yolunun çəkilişinə məsul olan tikinti firmalarının məsuliyyətsizliyi ilə əlaqələndirmişdi.

Ardınca yolun bir hissəsi torpaqlanıb, asfalt tökülüb. İdarə işini bitmiş sayıb. Müşahidələrimiz isə onu deməyə əsas verir ki, nə tenderdə qalib gələn firma, nə də müvafiq qurum işini layiqincə yerinə yetirib.

Sürücülərin dediyinə görə, yol çəkənlər bir gün işləyiblər. İdarə yolun qalan hissəsini təmir etməyə lüzum görməyib.

Hazırda yol tamamilə dağılıb. Yaxınlıqda yaşayanlar isə palçıq içində "üzür"lər. Bakıdan bölgəyə gələn sürücülər bu məsafəyə çatanda artıq döyüş hazırlığı vəziyyəti alırlar.

Onlar hər dəfə avtomobillərinin xarab olmaması üçün dua edirlər. Nəqliyyat Nazirliyinin yerli yol istismar idarəsi isə sürücüləri nə qədər zərərə saldığının fərqinə varmır.

**Masallının Qızılağac kənd sakini Nüsrət Əhədov bizimlə söhbətində deyir ki, iri tonnajlı maşınlar da yolun tez bir vaxtda dağılmasına səbəb olur:** "Cənub zonasında ən bərbad yol buradır. İrandan Azərbaycandan keçməklə Rusiyaya yük bu yolla daşınır. Buradan da geriyə yük maşınları keçir. Bu qədər hərəkət olan yolun bərbad olması, illərlə təmir edilməməsi biabırçılıqdır. Lənkəran, Astara camaatı bu yolun keçilməzliyindən qan ağlayır. Dərdimizi kimə deyək?"

Onun fikrincə, ölkə başçının dövlət büdcəsindən yolun təmirinə ayırdığı pullar bir neçə qurum arasında bölüşdürülərək mənimsənilib. Nəticədə Masallı-Lənkəran yolunun aqibəti Allahın ümidinə qalıb. Şikayətçi bildirir ki, yolun dəhşətli gündə olması regiona yay aylarında qonaqların daha az gəlməsinə səbəb olur.

Qeyd edək ki, sözügedən cəhənnəm keçidi Ələt-Astara magistralının 160-cı kilometrliyindən sonra başlayır. Bu dalğavari yol sürücülərin kabusuna çevrilib.

Sürücülər danışırlar ki, bu cür vəziyyət Masallının Xocavar kəndindən başlayaraq Lənkəranın Şirinsu qəsəbəsinə kimi davam edir. Dəfələrlə dağılan, qabaran və ya çökən hissələr yolda hərəkət edənləri boğaza yığıb.

Çəkiliş zamanı gəlişimizə sevinən sürücülər qeyd edirlər ki, "Azərinşaat" və "Kolin" firmaları da əsas günahkarlar arasındadır. Onlar Viləşçayın karxanasından tikinti materiallarının əraziyə daşınması üçün iritonnajlı maşınlardan istifadə edirlər.

Qeyd edək ki, tikinti işləri aparılan ərazidə magistral yolun asfalt örtüyünün mühafizəsi üçün alternativ yol yaradılmalıdır. Sürücülər deyir ki, bu vacib məsələyə fikir verən yoxdur.

Odur ki, adıçəkilən şirkətlər da bu yolları dağıtmaqla kifayətlənir. "Cənub" televiziyasına müsahibəsində 41 saylı Masallı Yol İstismar İdarəsinin baş mühəndisi M.Dadaşov demişdi ki, həmin şirkətlərə bir neçə dəfə müraciət ediblər. Ancaq faydası olmayıb.

"Yeni Müsavat" vasitəsilə ölkə rəhbərliyinə və nəqliyyat nazirinə müraciət edən sürücülər bu məsələyə əncam çəkilməsini, hər iki firmanın bu məsələdəki məsuliyyətinin araşdırılmasını, o cümlədən yol idarəsinin fəaliyyətindəki nöqsanların təftişini xahiş edirlər.

❑ E.MƏMMƏDƏLİYEV
Bakı-Masallı-Bakı












**Yenə aylardan noyabr, günlərdən.... bayram əhval-ruhiyyəsi. Azərbaycanın informasiya məkanında liderliyi 20 ilə yaxındır qoruyan “Yeni Müsavat” qəzeti 26-cı ad gününü qeyd etməyə hazırlaşır. 26 yaşlı gəncdən çılğınlıq, emosionallıq... gözlənilsə də, bu sözlər bizim səbəbkara aid deyil. Noyabrın 10-da 26-cı yaşını qutlayan qəzetin baş redaktoru Rauf Arifoğlu ilə ənənəvi ad günü söhbətində məlum olur ki, son 1 ildə qət edilən məsafə, verilən qərarlar duyğuların yox, məntiqin süzgəcindən keçib... Necəsini söhbətin detallarında anlayacaqsız...**




# “Yeni Müsavat” yırtılmış siyasət gəmiləri üçün tıxac materialı ola bilməz - müsahibə

## Rauf Arifoğlu: “Hesab edirəm ki, mən də düz elədim, İlham Əliyev də”; “Biz hansısa bir liderin arxa bağçası olmaqdan çıxdıq”

***- Rauf bəy, 25 illik yubileyimiz ərəfəsində elə bu otaqdaca çox geniş bir söhbət etmişdik sizinlə. O gündən bu günə, təqvim dəyişikliyini nəzərə almasaq, “Yeni Müsavat”ın həyatında nələr dəyişib?***

- Dəyişən əslində çox şeylər var. Azərbaycan dəyişib. Buradakı siyasi qüvvələr, iqtidarın və müxalifətin gələcəyə baxışları, plan və strategiyaları... Bizdə isə... Strategiya yerindədir - mövcudluğu və liderliyi qorumaq. Digər məsələlər... Qəzetimizin ilk sayını əldə etmişik. “Yeni Müsavat” elə bir tale yaşayıb ki, biz bir neçə dəfə ofisimizdən çıxmaq zorunda qalmışıq. Arxivimizin bir parçasını itirmişdik və illərdir ki, “Yeni Müsavat” qəzetinin ilk sayını axtarırdıq. Və onu tapdıq...

***- İlk nüsxə nə qədər tirajla dərc edilmişdi?***

- 13 min nüsxə ilə.

***- Son 1 ilin digər dəyişiklikləri hansılardır?***

- Daha bir dəyişiklik də odur ki, biz daha 360 nüsxə əlavə dərc olunmuşuq... Ötən bir ildə parlament seçkiləri də vardı. Ötən il böyük ümidlərimiz vardı ki, demokratiya istiqamətində açılım olacaq. Mən bunu gözləyirdim. Hakimiyyətin içində də müəyyən qrupun bunu arzuladığını bilirdim. Prezidentlə təmas imkanları olan, onunla iki dəfə görüşmüş bir şəxs olaraq bilirəm ki, o da çağdaş demokratiya, informasiya texnologiyaları, dünyanın gedişatı ilə bağlı mütərəqqi fikirlərə sahibdir. Mən bilavasitə özünü dinləyərək, onunla görüşdən təəssürat yazaraq o qənaətə gəlmişəm. Amma bu açılım baş vermədi... Bu da son bir ildəki ən ciddi dəyişiklikdi... Ötən il bu zamanlar bir il sonraya böyük ümidlər və iddialar vardı. İndi o, yoxdur. Azərbaycanın ənənəvi müxalifəti son şans kimi bu seçkilərə sarılmışdı. Bu son şans müxalifətin əlindən çıxdı və onun özünü bir daha toparlamasına, göstərməsinə imkan verilmədi. Bu da həmin müxalif düşərgənin əhəmiyyətli kəsimi üçün elə son deməkdir... Bu bir il ərzində dəyişən vəziyyətlərdən biri də odur ki, mən müxalif düşərgədən qəzeti ayırma prosesini yekunlaşdırdım. Bu proses 10 il idi ki, gedirdi. Nəzərimcə, biz nəhayət ki, Azərbaycanda dünya qəzetçilik standartlarına riayət etməliyik. Ölkənin əsas informasiya istehsalçılarından biri olan “Yeni Müsavat” media qrupu müxalif düşərgə, xüsusən Müsavat Partiyası ilə çox iç-içə idi. Mənim də partiyanın üzvü olmağım - yeri gəlmişkən, bu 1 ildəki dəyişikliklərdən biri də mənim partiyadan çıxmağım oldu - qəzet və müxalif düşərgəni bir-birinə sıx bağlayırdı və bu durum qəzetimizi təsirləndirirdi. Məsələn, müxalif düşərgənin iflası və heç bir nəticə əldə etməməsi, heç şübhəsiz ki, “Yeni Müsavat”ın tirajına, nüfuzuna, mövzularına, mötəbərlik göstəricisinə təsir edirdi. Biz böyük yanlışlar yapan və minlərlə insanı fəlakətə, bir boşluğa sürükləyən lider və siyasətçiləri haqlı çıxaran informasiya siyasəti qurmağa, onları müdafiə və himayə etməyə məcbur idik. Çünki eyni gəmidə idik. Gəmi isə çoxdan deşilib və onun yırtıqlarını iki qəzetlə - “Yeni Müsavat” və “Azadlıq”la tutmaqla məşğul idik. Biz artıq yırtıqtutma materialı olmayacağımızı birmənalı ortaya qoyduq.... Yeri gəlmişkən, bu iflası uzun müddət əvvəldən görürdüm. 2005-ci ilin noyabrında bu qənaətə gəldim, 2008-ci ilin avqustunda, bizimkilərin prezident seçkisindən uğursuz imtinasından sonra bu qənaətim daha da bərkidi; 2010-cu ildə müəyyən ümidlər yarandı; biz yenidən o düşərgəyə bir az da yaxınlaşaraq İctimai Palatanı birlikdə qurduq... 2013-cü ildə “son şans”, deyə prezident seçkilərinə media quruluşu olaraq tam dəstəyimizi verdik. Hamıdan çox itirdim, 3 milyon 200 min manat təzminatla 13 məhkəmə iddiası “qazandıq”. Xeyli də maddi itkilərimiz oldu. 2013-cü ildən sonra birmənalı və qəti qənaətim oldu ki, Azərbaycanın ənənəvi müxalifətinin yaxın zaman kəsiyi ərzində özünü toparlayaraq iqtidara iddia etməsi qeyri-mümkündür. Bunun da təbii ki, təhlil və məlumat qismi var. Bu düşərgəyə, onun deqradasiyaya uğramış funksionerlərinin, istiqaməti itirmiş elektoratının sınıq könüllərini xoş etmək üçün 26 ilimi verdiyim belə möhtəşəm informasiya mühərrikini “yandırmaq” olmazdı. İndiki anda “Yeni Müsavat” qəzeti hazırda Azərbaycan tarixi, demokratiyasının gələcəyi üçün bütün müxalif düşərgənin cəmindən daha mühümdür, vacibdir. Onun qorunması daha böyük əhəmiyyət kəsb edir, nəinki hansısa partiyanın. Partiyaları yenidən qurmaq, formalaşdırmaq, üzvləri yatalaq durumundan çıxarmaq mümkündür. Amma qəzet hərəkətdə olan velosiped kimidir. Onu dayandırmaq olmaz, əks halda, aşacaq. Bu baxımdan düşərgədən qopmanın son addımını atdım və hər şey istədiyim kimi oldu. Müxalif düşərgənin bəzi nümayəndələri, funksionerləri özləri mənim bu siyasətimə dəstək verdilər, elə bir hücuma keçdilər ki... Belə möhtəşəm gediş təsəvvür etməzdim... Bəzi hallarda mən düşünərək bu prosesi daha da provokasiya edirdim ki, nəhayət, bu qaynasın və bizim geri dönməyə, müxalifətdən daha çox müxalifətçi olmağa heç bir körpümüz qalmasın. Bu, çox önəmli idi. Hər kəs baş verənin bir siyasi partiya ilə bir qəzet rəhbərliyinin gizli anlaşması, oyunu olmadığına inanmalı, yaxşı, ya da pis olsun, bizim müstəqil olduğumuzu bilməli, buna inanmalı idi. Oxucu bilməli idi ki, bizim məlumatımız, yazılarımız, bizim istehsal etdiyimiz informasiya paketi oxucunun gözündə çökən, iflasda olan və heç bir şansı olmayan müxalif düşərgənin mətbəxində hazırlanmış “propoqanda” paketi deyil. Biz artıq müxalifətin əlavəsi, quyruğu, hansısa bir liderin arxa bağçası deyilik. “Yeni Müsavat” arxa bağça olmaqdan çıxdı. Bu, çoxdan belə idi. Amma bu təəssüratı siyasətlə aktiv məşğul olan insanlarda yaratmaq mümkün idi. Sadə xalqda ad oxşarlığı baxımdan bunu eləmək olmurdu. Hamı elə düşünürdü ki, Müsavat Partiyası nə deyirsə, qəzet onu yazır. Amma indi bu təəssürat yoxdur. Mən də məhz bu nəticəni istəyirdim.

***- Bu qərarı vermək üçün niyə 2015-ci ili gözlədiz?***

- Çünki 2015-ci il 2013-cü ildən sonrakı 2 ilin yekunu deməkdir. 2013-cü ildə müxalifət düşərgəsinin son bir cəhdi baş verdi. Dünya siyasət tarixində demokratiya həmləsi modeli kimi qəbul edilən bir model də tapıldı. Kənar bir ziyalının bütöv bir düşərgənin başına gətirilərək, onu birləşdirməsi və siyasi alternativi təşkil etməsi baş verdi. Amma bu, uğursuz oldu. Ona görə ki, bu, yalançı bir həmlə idi, Moskvada hazırlanan bir ssenari əsasında baş vermişdi. Çox təəssüf ki, biz onu sonradan azərbaycanlılaşdırsaq da, Rüstəm İbrahimbəyovun yerinə Cəmil Həsənlini gətirsək də, prosesi Kremlin kontrolundan çıxara bilmədik. Ona görə də Rusiyaya Azərbaycan hakimiyyətini şantaj edə biləcək bir rıçaq verdik... Kreml Milli Şuranı, sadəcə, istifadə etdi, hakimiyyətə təhdid kimi yaratdı və yekunda bu təhdiddən maksimum şəkildə yararlandı... Moskvada gizli ssenarilərlə yaradılan Milli Şuranın Azərbaycana vurduğu zərbələr bu gün də davam edir... Bunu görəndən sonra anladıq ki, bu düşərgə hakimiyyət maraqları naminə bütün prinsipləri ayaq altına almağa hazırdır ki, bu da yolverilməzdir, ölkəmizin gələcəyini təhdid edən faktordur. Bundan başqa, həmin prosesdə dəstək verdiyimiz Cəmil Həsənli və onun ətrafı seçkidən dərhal sonra bizi ağlasığmaz ittihamlarla suçladı. Çünki biz gerçəkləri yazmağa başlamışdıq, oyunu ifşa edirdik və məğlubiyyətin hesabını sorurduq. Müxalif düşərgə isə ittihamları sevmir. Bu düşərgə və onun liderləri illərdir ki, proseslərin içinə... gül qoyur, sonra da deyir ki, elə bu cür olmalı idi, gəlirik... Və hər dəfə də özlərindən, qısır siyasətlərindən başqa hər kəsi suçlaya bilirlər...

***- Kənardan görünən odur ki, 2015-ci il “Yeni Müsavat”a qarşı bu cür ittihamların, hücumların intensivləşdiyi il oldu...***

- Bəli, çünki biz bir iflas düşərgəsindən qopurduq. Milli Azadlıq Hərəkatının azsaylı uğurlu layihələrindən biri də “Yeni Müsavat”dır. Bəlkə də yeganə uğur əmsalı qalan layihədir... İqtidarımız, təşkilatlarımız dağıldı, liderlərimiz öldü, ya da yıprandı, kiçildilər; amma “Yeni Müsavat” bütün situasiyalarda liderliyini qorudu. Düz 20 ildir! İndi istəyirlər, biz də onların gününə düşək; bataq... Bilirsiz, əslində bu hücumlar çox lazımlıdır; bizim mötəbərliyimizə, Müsavatın arxa bağçası olmamağımıza inam yaradır. Bizim bu prosesdən aldığımız yaralar tez sağalacaq. Birincisi, ona görə ki, zərbə vuranların, daş atanların heyi qalmayıb, dərin yaralar açmağa. İkincisi isə qəlbimizi incidən, amma cismimizi incidə bilməyəcək qədər kiçik daşlardan atırlar. Müxalifətin siyasi intifada üçün daşı belə yoxdur; o ki ola başqa şeyləri olsun! Bu baxımdan, gələcəyə baxsaq, biz böyük strateji yekun əldə etmiş olduq. Mən media sektorunda qalmağa qərar vermiş biri kimi istədiyimi aldım. Bu yay və payıza doğru hər kəs mənə işlədi. Məni sağdan da vurdular, soldan da... Amma bu vurmalar, hərəkətlər mənim öz qəzetimi yeni daşıdığım yerdə oturtmam üçün çox lazımlı idi...

> **“Məni sağdan da vurdular, soldan da... Amma bu vurmalar mənim öz qəzetimi yerində oturtmam üçün çox lazımlı idi”**

***- Seçkilərdən bəhs edib, sizin gözlənilən namizədliyinizin üzərindən keçməyək. İlin əvvəlindən siyasi kluarlarda da, media cameyəsində də sizin bu seçkilərə qatılacağınızla bağlı gözləntilər vardı, özünüz də zaman-zaman buna eyham vururduz. Amma gözlənilən baş tutmadı və siz seçkilərə qatılmadız. Seçkilərlə bağlı real mənzərəni görəndən sonra necə düşünürsüz? “Yeni Müsavat” adına, Rauf Arifoğlu adına bu, itki idi, yoxsa qazanc?***

- Qazanc idi. Mən bu cür kampaniyada necə iştirak edə bilərdim? Erkən məlumat da almışdım ki, demokratiya açılımı, yumşaq desək, təxirə düşdü...

***- İndi seçki bitib. Mənzərə nədən xəbər verir? Qərarınızda nə dərəcədə haqlı idiz?***

- Mənim əvəzimdən AXCP funksionerləri mandatımı da “vermişdilər”, dairəmi də “müəyyənləşdirmişdilər”. Heç qərar belə verməmişdim. Tovuza getmək haqda düşünmədiyim halda, İlyas İsmayılovdan rəy alırdılar ki, Rauf Arifoğlu sizə rəqib gəlir... O da təcrübəli adam olsa da, təəssüf ki, bu oyuna düşdü və heç bir əsas olmadan, əleyhimə ifadələr işlətdi. Yekunda da kimsənin tanımadığı bir xanıma onu uduzdurdular. Mən dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, Azərbaycanda “Yeni Müsavat”ın və ona aid olan saytların baş redaktoru, sahibi olmaq deputatlıqdan da, hətta spikerlikdən də daha üstün postdur. Seçkilər normal olsaydı, seçkiyə girsəydik, təbii ki, gücümüzün üstünə güc gələcəkdi. Lakin bu olmadı; gücümüz də artmadığı kimi, azalmadı da. Təbii, yaxşı olardı ki, bədxahlarımın aylar öncə dediyi “prezident ona xidmətlərinin qarşılığında mandat verəcək” proqnozları doğrulaydı. Onsuz da bu varianta da bir şey tapıb deyəcəklər. Lakin mən bir çoxlarından fərqli olaraq, keçmişə yox, daim gələcəyə baxmağa məcburam. Daim irəli baxmasaq, bu zaman zamanın təkərinin altında qala bilərik... Yadımdadır, 2009-cu ildə Müsavat Partiyasının o zamankı başqanı və “Yeni Müsavat”ın da təsisçisi İsa Qəmbər bütün ölkə üçün bir sürpriz edərək, təsisçilikdən imtina etdi. Mən o zaman yubiley tədbirində çıxış edib, qarşıdakı 5 ilin hədəflərini göstərdim ki, ya “Yeni Müsavat”ı daha da irəli aparmaq, bu, mümkün olmasa heç olmasa mövcudluğunu qorumaq lazımdır. İsa bəy orda replika verdi ki, o qədər gözləməyə ehtiyac olmayacaq... Çünki o düşünürdü ki, 2010-cu ildə, heç olmasa, 2013-cü ildə müxalifət qalib gələcək. Amma mən elə o zamandan həm onlara, həm özümüzə baxıb görürdüm ki, bu, olmayacaq. 2020-lərə qədər belə davam edəcək. Mən nə demişdim, hamısını etdim... İndi də deyirəm ki, 2019-cu ilə, qəzetin 30 illiyinə qədər qəzeti qorumaq, heç olmasa, onun nəzdində daha bir neçə media orqanı yaratmaq, biznesi böyütmək məqsədimiz var. Necə ki, bu 6 ildə etdiklərimiz “Yeni Müsavat” media qrupunun tarixində əldə etdiyimiz ən yüksək nəticələrdir. Gündəlik bir neçə yüz min oxucumuz var. Bizi dünyanın hər bir yerində oxuyurlar.



> **“Mən deyirəm ki, “Yeni Müsavat”ın baş redaktorluğu deputatlıqdan da, spikerlikdən də daha üstün postdur”**

***- 26-cı ili bitirdiz. 27-yə nə ilə gedirsiz? Hədəflər, planlar, arzular... nələrdir?***

- İstəyirəm ki, ən azından, 27 yaşımızda elə burda, sənə müsahibə verim. Yəni mövcud olaq, davam edək. Bu, təkcə iş yeri deyil, eyni zamanda missiyanın davamıdır. Gücümüz çatsa, bir az daha irəliləyəcəyik. Çünki yaşımızın üstünə gələn hər bir il bizim sambalımızı daha da artırır, bizi daha da böyüdür.

**❑ Sevìnc TELMANQIZI**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015



# Mexa Astutso, Rövnəq ara

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyi Bakıda təntənəli şəkildə qeyd olunmuşdur. Bəzi alimlərə prezident təqaüdü, bəzilərinə isə xalq artisti adı verilmişdir. Bayram münasibətilə AMEA Yerin öz oxu ətrafında fırlanması məsələsinə münasibətini dəyişdirmişdir. Yeri əfv ediblər. İndi o, fırlana bilər.**

Doğrusu, mən bizim akademiyanın dünyaya gəldiyi bu 70 ildə dünya elminə 7 dənə faydalı nəsə verdiyi haqda heç bir məlumata malik deyiləm, ancaq siz bunun doğum tarixinə baxın! İndi bunun 70 yaşı varsa, AMEA Riyaziyyat İnstitutunun şefi, təhsilin anasını ağladan keçmiş nazir Misir müəllimlə birgə hesablama aparsaq doğum tarixi 1945-ci ilə düşür. Deməli, AMEA faşizm üzərində qələbə ilində yaradılmışdır. Bəs niyə orda faşizmə daima rəğbət ortaya çıxır? Sirli hadisədir. Bəlkə də Argentinaya qaçmağa imkan tapmayan bəzi almanlar gəlib bizim akademiyanın əsasını qoyublar. Yeri gəlmişkən, Hökumət Evinin binasını da həmin almanlar tikiblər, ona görə kabinet sarıdan yarımırıq, nazirlər bir ucdan reket çıxır, xalqı krematoriyada yandırırlar.

Nazir yazmışkən, dünən rabitə naziri Əli Abbasovdan idarəsindəki tuthatut haqda soruşublar, deyib, bəli, bəzi müvəqqəti saxlanılanlar var: "Onları müvafiq şəxslər əvəz edir və hesab edirəm ki, bu gün Azərbaycanda rabitə sistemi tələb olunan standartlara cavab verir, qanuni fəaliyyət göstərir. Burada heç bir problem yoxdur". Bunu belə anlamaq olar: prokurorluq nə qədər tutulan olsa da biz qanuni fəaliyyət göstəririk. Zakir Qaralovun bostanına daş atır. İkincisi, hardan bilirsən tutulanlar müvəqqətidir? Bəlkə onları uzun müddətə həbs edəcəklər?

Ümumiyyətlə, gərək dövlət qulluqçusu danışığına fikir versin, xalqı yanlış düşüncələrə salmasın. Bax, belə ciddi səhvlərdən birini bu həftə ARDNŞ şefi Rövnəq əkə etmişdir. Telekanalizasiyaya intervü verib, deyir idarəmiz Gürcüstanda hər yerə qaz xətti çəkib, üstəlik dini obyektlərdən pul almırıq. Bunların sırasında bütün erməni kilsələri də varmış.

İndi bu çıxışdan rövnəqlənən qonum-qonşularımızla bərabər qərara almışıq evimizi erməni kilsəsi elan edək, SOKAR bizdən də qaz pulu yığmağı dayandırsın. Vallah. Daha doğrusu, Astvas! Ermənicə bir-iki dua da öyrənəcəyik, ondan sonra Rövnəq müəllim bizdən qaz pulu görsə neftin barrelinin 110 dollar olmasını təzədən görər. ("Qulağının dibini görər" ifadəsinin energetika sektorundakı formasıdır). Hazırda internetdən erməni kilsələrinin daxili quruluşu, keşişlərin geyim formaları haqda informasiya köçürdürəm. Tolerant olsun deyə bir-iki qonşumuz evində gürcü kilsəsi də açmaq fikrindədir.

Biz burdan "Azərişıq"a, "Azərsu"ya və başqa idarələrə də etirazımızı bildiririk. Niyə onlar da SOKAR-dan dərs almır? Fikrimcə, dini obyektlərə su, işıq verilməsi pulsuz olmalıdır. O cümlədən, evini erməni kilsəsinə çevirən vətəndaşlarımız təzə qanundan yararlanmalıdır. Əgər erməni kilsələri çoxalsa başqa kommunal ödənişləri verməmək üçün evimizi pravoslav kilsəsi, budda məbədi, lüteran ocağı, canım sənə desin, inkvizisiya idarəsi də elan edə bilərik. Siz işarə verin, qalanı bizlikdir.

Yazımın sonunda erməni kilsələrini pulsuz qazla təşkil edən yapist hökumətimizə bir erməni duası ilə təşəkkürlərimizi çatdırmağı özümüzə borc bilirik: "Amen hayi sertits bexats! Lesir ays dzaynn, Astvats overkar kyanq tur hayrapetin Rövnəqikan, Erkar orer SOKAR hayots hor Ter ansasan pahir dumişt qo isk himnats mayr ator"

Tərcüməsi təxminən belədir ki, Rövnəq müəllimi və SOKAR-ı daim Allah yanında uca tut, ey uca millət, sevgili xalq.

İndi söz əlaqədar təşkilatlarındır - duamızı qəbul eləyin.

# "MTN işi"ndə yeni sensasiya - generalitetin kabinetlərindən nə tapılıb?

## Bəzi kabinetlərdə hələ aktiv olmayan gizli xüsusi dinləmə qurğuları aşkar edilib; Akif Çovdarov həbs edilərsə, bu o deməkdir ki, Eldar Mahmudovun da həbsi sanksiyası imzalanmaq üçün hazırdır

**Eldar Mahmudovun işdən azad edilməsi ilə Milli Təhlükəsizlik Nazirliyində başlamış "17 oktyabr inqilabı" yenidən medianın bir nömrəli mövzusuna çevrilib. Buna səbəb isə bu strukturda "təmizləmə" və həbslərin davam etməsidir. Hər gün demək olar ki, MTN-də kiminsə işdən çıxarılması, kiminsə həbs edilməsi barədə xəbərlər yayılır, bu qurumda sahibkarlara qarşı baş vermiş cinayətlərin yeni-yeni təfərrüatları məlum olur.**


Akif Çovdarov

MTN-də baş verən qanunsuz əməllərdə adı ən çox hallanan Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarov, nəhayət, işdən uzaqlaşdırılıb və ciddi nəzarət altına alınıb. Onun saxlanılması xəbəri E.Mahmudov işdən çıxarıldıqdan dərhal sonra yayılmışdı. Amma sonradan onun həbs edilmədiyi, hətta öz kabinetində oturmağa davam etdiyi bildirildi.

"Yeni Müsavat"ın hüquq-mühafizə orqanlarına yaxın mənbələrdən əldə etdiyi xəbərə görə, əslində A.Çovdarovun kabineti elə nazir işdən çıxarılan gün möhürlənibmiş. Nazirin kabineti ilə yanaşı bir neçə vəzifəli şəxsin otaqları da dərhal Xüsusi Dövlət Mühafizə İdarəsinin əməkdaşları tərəfindən möhürlənib. Üstəlik, bir neçə gün ərzində nazirliyin vəzifəli şəxslərinin kabinetində axtarış-əməliyyat tədbirləri keçirilib.

Mənbənin ən sensasion məlumatı budur ki, bəzi kabinetlərdə hələ aktiv olmayan gizli xüsusi dinləmə qurğuları da aşkar edilib. Ehtimal edilir ki, MTN generaliteti hansısa məqamda bu qurğular vasitəsilə nazirlikdə baş verənləri dinləmək üçün hazırlıq görüb. Bu səbəbdən də yeni təyin edilən bütün idarə rəislərinə tapşırılıb ki, kabinetləri həm də gizli qurğulardan təmizlətmək qayğısına qalsınlar. Bu səbəbdən A.Çovdarovun "kabinetində oturması" xəbəri əvvəldən də real görünmürdü. "MTN işi" bütövlükdə Akif Çovdarovun üstünə fokslanmasa da, bu strukturda ən odioz fiqur kimi onun adı həmişə öndə çəkilib. Keçmiş həbsxana rəisi olan Akif Çovdarov kriminal əlaqələrini daima saxlayıb. Onun Gürcüstan doğumlu iki məşhur azərbaycanlı avtoritetlə *(hər ikisi Azərbaycandan kənarda yaşayır)* daima əlaqə saxladığı, bəzi "razborkalarda" onlara ciddi dəstək verdiyi, hətta Rusiyanın hüquq-mühafizə orqanlarına "öz adamları" kimi tapşırdığı iddiaları var.

**Hələ bir neçə il əvvəl ABU-nun sabiq rektoru Elşad Abdullayev qardaşı Mahir Abdullayevin oğurlanmasında bilavasitə A.Çovdarovu günahlandırmışdı. Sitat:** "Rusiya Federasiyasının Sverdlovsk vilayətində taxta-şalban alverçisi, Heydər Əliyevin hakimiyyəti dövründə axtarışda olan, kriminal aləmdə "Təpəgöz" kimi tanınan və hazırda Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi olan general-biznesmen Akif Çovdarovdur.

Belə şübhəli tərcümeyi-halı olan kriminal şəxs, "polojeniyaya" baxan adam qısa müddətdə dövlətin əsas təhlükəsizlik idarəetmə orqanında necə ali vəzifə tuta bilər?" MTN-in ictimaiyyətlə əlaqələr mərkəzi isə həmin vaxt A.Çovdarovla bağlı ittihamlara "biz cəfəng məqalələri şərh etmirik" sözləri ilə münasibət bildirmişdi.

A.Çovdarovla bağlı daha bir sensasion məlumat onun vətəndaşlığı ilə bağlıdır. Belə ki, Çovdarov Gürcüstanda doğulsa da, onun Rusiya vətəndaşı olduğu deyilir. İddialara görə, o, bu illər ərzində Rusiya vətəndaşı kimi MTN-in ən mühüm postlarından birində oturub. Amma onun Rusiya ilə deyil, Gürcüstanın siyasi dairələri ilə yaxşı əlaqələri olduğu da iddia edilir. İddiaya görə, prezidentin son səfərində ona Çovdarovun "günahlarını bağışlamaq" xahişi edilə bilərdi.

Məlumata görə, indiyədək həbs olunan MTN əməkdaşlarının əksəriyyəti də məhz qeyri-qanuni göstərişlərin bir çoxunu Çovdarovdan aldıqlarını deyiblər. A.Çovdarov həbs edilərsə, bu o deməkdir ki, Eldar Mahmudovun da həbs sanksiyası imzalanmaq üçün hazırdır. Çünki A.Çovdarov MTN-in sabiq şefinin bütün sirlərini bilən üç adamdan biri, bəlkə də birincisidir.

Qeyd edək ki, MTN-in Baş Əks-Kəşfiyyat İdarəsinin şöbə rəisi, polkovnik Mirəziz Əsgərov, daxil olan şikayətlər əsasında, Baş Prokurorluq tərəfindən saxlanılıb.

Hazırda araşdırma aparılır.

E.Mahmudovun sayəsində Azərbaycanın ən gənc generallarından biri olan 36 yaşlı general-mayor Vüqar Allahquliyev MTN-in hərbi hissə komandiri vəzifəsindən uzaqlaşdırılıb. General təhlükəsizlik sistemində işə yararsız hesab edilib. V.Allahquliyev 2015-ci il mart ayının 27-də general-mayor rütbəsi ilə təltif edilib. 36 yaşlı general Eldar Mahmudovun qohumudur. V.Allahquliyevin atası Zülfüqar Alllahquliyev sabiq MTN rəhbəri Eldar Mahmudovun həyat yoldaşının dayısıdır. Bundan əlavə, Z.Allahquliyev Azərbaycanın ən varlı iş adamlarından sayılır. Məlumata görə, onun bir neçə ticarət obyektləri və kərpic zavodları var.

❑ **"Yeni Müsavat"**

# "Azərbaycan ordusu mülki sakinlərə heç vaxt atəş açmayıb"

**"Ermənistanın bəzi kütləvi informasiya vasitələri Azərbaycan-Ermənistan dövlət sərhədində Rusiyaya məxsus yük maşınının guya atəşə tutulması barədə gülünc, cəfəng məlumat tirajlayıblar.**




Görünür ki, son vaxtlar iflasa uğrayan erməni hərbi və təbliğat sistemi Azərbaycan və Rusiya münasibətlərinin mehriban dost, qonşu, tərəfdaşlıq çərçivəsində olmasından və ikitərəfli əlaqələrimizin yüksələn xətlə inkişaf etməsindən həmişə olduğu kimi yenə də narahatdır".

Bu barədə APA-ya Müdafiə Nazirliyinin mətbuat xidmətindən daxil olan məlumatda bildirilib.

Qeyd olunub ki, erməni tərəfi dövlətlərimizin bu əlaqələrinə qısqanclıqla yanaşır, həsəd və qibtə hisslərini cilovlaya bilmədiklərindən məqsədyönlü surətdə törətdikləri hadisəni növbəti dəfə Azərbaycan tərəfinin üzərinə yıxmaqla guya öz aləmlərində bu münasibətlərə xələl gətirə biləcəklərini zənn edirlər: **"Silahlı Qüvvələrimiz tərəfindən mülki sakinlər, qeyri-döyüş texnikası və obyektlərə heç vaxt atəş açılmayıb. Bu səbəbdən də yayılan məlumatların heç bir əsası yoxdur, yalandır və düşmən tərəfinin növbəti uğursuz təxribat cəhdidir".**



# Azərbaycan türklərinin təhqir edilməsi Cənubi Azərbaycanı ayağa qaldırdı

## Təbriz, Zəncan, Ərdəbil, Qəzvin, Astaranın baş meydanlarında aksiya qərarı verildi; İranın antitürk proqramı qapadıldı, həqarət edənlər cəzalandırıldı, ancaq etirazlar səngimir

**İran İslam Respublikası Dövlət Teleradio Təşkilatının rəhbərliyi (İRİB) Azərbaycan dilinə hörmətsizlik edərək onu lağa qoyan "Fitileh" verilişinin efirə verilməsinə məsuliyyət daşıyan əməkdaşı işdən çıxarıb və azərbaycanlılardan üzr istəyib. Noyabrın 6-da efirə gedən verilişlə bağlı ziyalılardan ibarət bir sıra yerli azərbaycanlının etirazından sonra İRİB-in ictimaiyyətlə əlaqələr şöbəsi bəyanatla çıxış edib.**

**AzərTac-ın yaydığı məlumata görə, bəyanatda deyilir:** "Əziz həmvətənlərimizin narahatlığına səbəb olan verilişin efirə buraxılmasına məsuliyyət daşıyanlar işdən azad ediliblər. Əsrlər boyu müxtəlif xalqların nümayəndələri İranda milli birlik və həmrəylik şəraitində yaşayıblar. İranın çoxmilliliyi onun zənginliyini göstərir. Bu milli birliyə zərər vurmağa heç kəsin haqqı çatmır. Bəyanatda televiziya rəhbərliyinin üzrxahlığı bildirilib və bu kimi halların bir daha baş verməyəcəyi vurğulanıb".

Xatırladaq ki, məsələ ilə əlaqədar televiziyanın iki vəzifəli şəxsinə töhmət verilib.

İran televiziyasının 2-ci kanalında yayımlanan bir televiziya komediyasında diş fırçası ilə tualet fırçası arasındakı fərqi bilməyən, dişlərini tualet fırçası ilə fırçaladığı üçün ağzı qoxuyan bir türk uşağı təsvir edilib. Komediya fars dilində olsa da, bəzi bölümlərində türkcə dialoqlar da yer alıb. Verilişin yayılmasından sonra Azərbaycan vilayətlərində başlanan təpkilərin genişlənib kəskinləşməsi nəticəsində siyasətçilər və millət vəkilləri İran dövlət televiziyasına etiraz bildirərək məsulların üzr istəməsini tələb ediblər.

İran televiziyası məsullarının üzr istəməsinə baxmayaraq, soydaşlarızın etirazları davam edir. ("Amerikanın Səsi") Bu istiqamətdə Şərqi Azərbaycan valisi, Təbriz, Urmiyə, Ərdəbil, Xalxal, Sərəskənd (Həştrud) və Mərənd kimi şəhərlərin millət vəkilləri, eləcə də müxtəlif Azərbaycan şəhərlərinin şura üzvləri və digər tanınmış şəxsiyyətlər ayrı açıqlamalar və etiraz bəyanatları yayıblar.

Təbriz millət vəkili Məhəmməd İsmayıl Səidi yerli media ilə müsahibədə İran telekanalında türklərin təhqir edilməsinin qəsdən həyata keçirildiyini ifadə edib. Sosial şəbəkələrin güneyli istifadəçiləri İran televiziyası məsullarının üzrünün səmimi olmadığını, yaydığı bəyanatda türk yerinə "azəri" ifadəsi işlədərək təhqir etməyə davam etdiyini önə çəkirlər. Güneyli fəallar bu növ proqramların yayımını İranda türklərə qarşı sistemli irqçilik siyasətinin bir hissəsi olduğunu vurğulayırlar. İran televiziyasının türkləri növbəti dəfə təhqir etməsi milyonlarla azərbaycanlı ilə yanaşı, bir çox yerli məsulun da etirazına səbəb olub. Şərqi Azərbaycan valisindən sonra Təbrizin millət vəkilləri və Təbriz Şəhər Şurasının üzvü də bu məsələyə öz




etirazlarını bildiriblər. Təbriz Şəhər Şurasının üzvü bildirib: **"Şərif türk əhalisinə belə təhqirlər yaraşmaz. Biz Teleradio Şirkəti (səda və sima) tərəfindən dəfələrlə belə proqramların yayımlanmasına şahid olmuşuq. Yenə də türklər açıq-aydın şəkildə təhqir olunub".**

Həbib Şiri Azər sözlərinin sonunda vuğulayıb ki, Teleradio Şirkətinin rəisi türklərdən rəsmi olaraq üzr istəməli və belə bir təhqiramiz hərəkətə səbəb olanları ciddi şəkildə cəzalandırmalıdır.

Təbriz, Azərşəhr və Üskü əhalisinin İran parlamentindəki millət vəkili Teleradio Şirkətinə kəskin etiraz edərək məsələ ilə bağlı Tehranda ən yüksək səviyyədə iclas keçiriləcəyini bildirib. Məhəmməd Hüseyn Fərhəngi bildirib ki, "çox təəssüfedici haldır ki, Azərbaycan əhalisinin şəxsiyyəti və hissiyyatı ilə bu qədər oynayırlar. Bütün bunlar qəbuledilməzdir".

Təbrizin digər millət vəkili Məhəmməd İsmail Səidi də "Fitilə" proqramında yol verilən təhqirə öz münasibətini bildirib. O bəyan edib ki, "bu təhqirin arxasında müəyyən əllər var. Ona görə də Teleradio Şirkətinin ən yüksək vəzifəli şəxsi Azərbaycan əhalisindən üzr istəməli və proqramı hazırlayanlar cəzalandırılmalıdır". Millət vəkili əlavə edib ki, üzr istəməkdən başqa həm də bu cərəyan araşdırılmalı və onun səbəbi əhaliyə izah olunmalıdır. Ona görə ki, Azərbaycan əhalisini təhqir etmək elə İran əhalisinin hamısını təhqir etməkdir.

Güneydəki mənbələrin yaydığı məlumata görə, Azərbaycan türk milləti irqçiliyə qarşı yürüş keçirəcək. Soydaşlarımız sosial şəbəkələr və müxtəlif şəhərlərdə bildiriş yayaraq əhalini fars irqçiliyinə qarşı kütləvi etirazlara dəvət edir. Aksiyanın Təbrizdə, Saat meydanı - Rasta küçədən Valiliyə (bazar) qədər -Abrəsanda, Zəncanın Səbzə meydanında, Ərdəbilin Şəriəti və Ətayi meydanlarında, Qəzvinin Səbzə meydanında, Astaranın Qomnam xiyabanında keçirilməsi qərara alınıb.

"GAMAC" təşkilatının sözçüsü Məhsa Mehdili, "GAMOH"un rəhbəri Dr. Mahmud Əli Çöhrəqanlı və "Milli Direniş" təşkilatının beynəlxalq işlər üzrə məsulu Kərim Əsğəri noyabrın 8-də GünAzTV-yə açıqlama verərək, İranın dövlət televiziyasında Azərbaycanın türk millətinə edilən təhqirlərə qarşı etiraz aksiyaların və yürüşlərin keçirilməsini dəstəklədiklərini bildiriblər.

**Ümid Partiyasının funksioneri Rüfət Muradlı** şəxsi feysbuk səhifəsində Güney Azərbaycanda xalqın bir daha ayağa qalxdığını yazıb: **"İran televiziyasında Azərbaycan türklərinə qarşı hörmətsizliyə qarşı Urmiyədə tələbələrin etiraz aksiyası artıq başa çatmaqdadır. Təbrizdə və başqa şəhərlərdə aksiyalara çağırışlar elan olunub. Təbrizdən aldığım məlumata görə, şəhərə çoxlu sayda polis və təhlükəsizlik qüvvələri cəlb olunub".**

Qəribəsi odur ki, İranın dini və siyasi hakimiyyətində kifayət qədər Azərbaycan türkləri təmsil olunduğu halda, türklərin təhqir olunması vaxtaşırı baş verir. Bundan öncə də dəfələrlə türkləri təhqir edən hallar baş verib, özü də bu, rəsmi mediada əksini tapıb. Ortaya sual çıxır: İran dövlətinin başında türklər dayandığı halda, necə olur ki, elə təhqir olunan da türk milləti olur?

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** bu barədə "Yeni Müsavat"a aşağıdakıları bildirdi: **"Bəzi "Sovetlər birliyi dağılmasaydı, gələcəkdə türklər hakim olardılar" deyən siyasətbazlarımız üzlərini İran adlı bir dövlətə tutsalar, orada milli məzmununu itirmiş səlahiyyət sahiblərinin düşməndən də qorxulu məxluqlara çevrildiklərini görsələr bir az düşünərdilər. İran, fars şovinizmi yaranışından türk millətinə düşmənçilik edib. Hətta fars düşüncəsinin məhsulu olaraq İslam dininin bölünməsinin və siyasi İslamın mahiyyətində də Türkə qarşı düşmənçilik durur. Bu cür - istər diktatura, istərsə də teokratik rejimlər başqa millətlərin ləyaqətlisini heç zaman görəv sahibi etməzlər. Onlar milli məzmununu, mahiyyətini itirmiş türk qanı daşıyan, amma türk olmayanları yuxarı mərtəbələrə dartıblar".** Z.Məmmədli bildirdi ki, son olayda millətimizin həyasızcasına təhqir olunması isə meydan oxumaqdır: **"Unudulmamalıdır ki, İran Azərbaycanın düşmənləri ilə - Ermənistan və Rusiya ilə dostdur. Ola bilər ki, dərin qatda başqa siyasi hədəflər, məkrli planlar olsun. Gerçəklik isə odur ki, millətimiz təhqir olunub və rejim onun bədəlini ödəməlidir. Bu cür həqarətlərin birdəfəlik qarşısının alınması isə Güney Azərbaycanın istiqlalından, Azərbaycan və Türkiyənin Güney Azərbaycanın haqq davasının yanında olmasından asılıdır".**

❑ **Cavid TURAN**



# Türkiyə üçün uğur ssenarisi - ondan Azərbaycana da pay düşür

## Qardaş ölkə seçicisi 1 noyabrda məhz bu ssenariyə xeyir-dua verib; Türkiyə dövlətçiliyi daxili və xarici təhdidlərə qarşı yeni immunitet qazanıb...

**1 noyabr erkən parlament seçkilərində Türkiyə toplumu yeganə doğru və müdrik qərarını verdi. Qardaş xalq "keçiddə atları dəyişməzlər" gerçəyini, bölgədə yaranmış böhranlı dönəmi nəzərə alaraq, tam doğru olaraq ölkənin daha bir neçə ay koalision hökumət "qızdırmasına", siyasi eksperimentlərə məruz qalmasını əngəllədi. AKP-yə təkbaşına yenidən hökumət qurmaq şansı tanıdı.**

Bu qərarın nə dərəcədə yeganə düzgün olduğu hər ötən gün hiss edilməkdədir. Belə ki, seçkilərdən dərhal sonra ən əvvəl terrorçu PKK və onun siyasi-hərbi uzantıları ilə mübarizə daha qətiyyətli və kəskin xarakter alıb. Xalqın mandat verdiyi hökumət dərhal işə keçib və indi heç vaxt olmadığı qədər inamlı, heç bir siyasi divident güdmədən terror təhdidi ilə mübarizə aparmaq əzmi göstərir.

PKK-nın seçkisonrası verdiyi böyük itkilər də sübut edir ki, hökumət terrora qarşı ən barışmaz mövqeyə, lap dəqiqi, onun kökünü kəsməyə köklənib. Paralel şəkildə Türkiyə ilə həmsərhəd Suriya və İraqda Ankaranın siyasi-diplomatik və hərbi fəallığını artırması müşahidə edilməkdədir.

Xüsusən də hərbi alanda qardaş ölkənin ABŞ və digər müttəfiq dövlətlərlə birgə Türkiyənin milli təhlükəsizliyini gücləndirməyə yönəlik daha effektli və sinxron addımlar atmağa hazırlaşması diqqət çəkir. Söz düşmüşkən, AKP-nin Türkiyədə yenidən təkbaşına hökumət qurmaq üçün legitimlik qazanması faktı ilə artıq Qərb də barışıb və əvvəlki ritorikanı müsbətə dəyişib.

Ayrı sözlə, demokratiya paytaxtları hələ bir müddət də hazırkı Ərdoğan iqtidarı ilə işləməyin qaçılmazlığını dərk edərək, onunla yeni planlar barədə düşünməyə başlayıb. Bir istiqamət deyildi - İŞİD terroru. Təbii ki, Suriya Bəşər Əsəd məsələsində də Ankara qat-qat qətiyyətli olacaq.

Türkiyədə 1 noyabr parlament seçkiləri ilə legitim hökumət strukturlarının bərqərar olunması özünü həmçinin, ölkənin beynəlxalq imicinin yaxşılaşması sahəsində, iqtisadi-ticari sferalarda və iki- çoxtərəfli münasibətlərdə göstərməyə başlayıb: türk lirəsi seçkilərin ertəsi günündən möhkəmlənməyə üz tutub, rəsmi Ankara Moskva və Tehranla qaz anlaşmaları ilə bağlı xalqın mandatı hesabına daha uğurlu və dayanıqlı mövqeyə sahiblənib.

"Böyük iyirmilər"in (G20) noyabrın 15-16-da Antalyada keçiriləcək sammiti böyük ehtimalla, bu yeni statusun möhkəmlənməsi və təsbiti ilə, Ankaranın regionda və dünyada yeni və artan vazkeçilməz rolunun nümayişi ilə yadda qalacaq.

***

Müxtəsəri, 1 noyabr seçkilərində xalq faktiki, Türkiyənin uğur ssenarisinə xeyir-dua və səs verib. Sözsüz ki, bu ssenaridə AKP rəhbərliyinin, məxsusən də prezident Rəcəb Tayyib Ərdoğanın rolu və xidmətləri böyükdür. İndi köhnə-yeni iqtidar növbəti 4 il üçün etimadı doğrultmalı, ölkəni onun üzləşdiyi terror təhlükələrindən, siyasi və iqtisadi təhdidlərdın qurtarmalı, Türkiyə dövlətçiliyini möhkəmləndirməli, separatçılığın kökünü kəsməli, daxili ictimai-siyasi sabitliyin dayanıqlığını təmin eləməlidir.

Ərdoğan hakimiyyətinin bunun öhdəsindən gələcəyi nə qədər çətin olsa da, mümkünsüz də görünmür. Bir motiv deyildi - xalqın onun arxasında durması. İkincisi motiv Ərdoğan komandasının 13 ildə qazandığı böyük iş (fəaliyyət) təcrübəsi və siyasi iradəsi sayıla bilər.

Bu təcrübə və siyasi iradə ölkə daxilində quruculuq, islahat və milli vəhdət yönündə işləri keyfiyyətcə yeni mərhələyə, müasir tələblər səviyyəsinə qaldırmağa artıqlaması ilə bəs edir.

Bir sözlə, xalqın əksərinin 1 noyabr xeyir-duası ilə Türkiyə dövlətçiliyi daxili və xarici təhdidlərə qarşı yeni immunitet qazanmış olub. Bu immunitetin təbii ki, Azərbaycana da dəxli var. Zira, qardaş ölkənin güclənməsi, regionda və dünyada söz sahibi olması həm də Azərbaycanın güclənməsi və söz sahibliyi, Qarabağ məsələsində daha əlverişli mövqe qazanması deməkdir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

**Onunla zəngləşəndə məni Ankaranın məşhur "Kuğulu park"ına dəvət elədi. Səbəbini sonra bildim. Dediyinə görə, Ankarada azərbaycanlı qonaqlarını burda qarşılayıb. Bunu parkdakı restoranın küncündəki masa və işçilərin münasibətindən də anlamaq olurdu.**

# "Kuğulu Park"da Azərbaycan və Qarabağ söhbəti - sabiq diplomatdan olay kimi açıqlamalar

## Turqut Ər: "Cənubdan İran, şimaldan isə Rusiya Azərbaycanı sıxır - müstəqillik təhlükədə"

*Həmsöhbətim Azərbaycanda xeyli məşhur olan, 6 ildən çox Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat katibi olmuş Turqut Ərdir. Azərbaycanı çox sevir, insanlarımız haqda yüksək fikirdədir. Deyir ki, azərbaycanlılar savad səviyyəsi yüksək, siyasi cəhətdən ayıq insanlardır. Təbii ki, təhsilin bugünkü durumunu da bilir, söhbətdə onu da əlavə edir. Azərbaycanın, məşhur deyimlə desək, ən yeni tarixinin əsas şahidi olan, ən qaynar olaylarının iştirakçısı Turqut Ər mətbuata daha çox siyasi çıxışları, müsahibələri, açıqlamaları ilə tanışdır. Ankarada onunla siyasətdən kənar, şəxsi işləri, həyatı barədə danışmaq istəyirdim, amma alınmadı, hardan başlasaq da söhbət yenə də siyasətə, siyasi olaylara gəlib çıxdı.*

- Hazırda təqaüddəyəm. Amma yazar olaraq fəaliyyətimi davam etdirirəm, bir neçə kitablarım yayınlanıb. Son kitabım Türkiyədə 1938-45-ci illərdə mətbuata tətbiq olunan senzura haqdadır. Faktlar və sənədlərə əsaslanan bir kitabdır. Türkiyədə böyük maraq doğurdu, universitetlərdə əlavə dərs vəsaiti olaraq oxudulur. Bundan başqa, hazırda bir araşdırma üzərində çalışıram, ona görə ötən ay Ərzuruma getdim, araşdırmalar apardım, fotolar çəkdim, insanlarla söhbət etdim. Sənədlərlə 1918-ci ildə mənim doğma kəndlərimin ermənilərdən necə xilas edldiyini anladacaq bir əsər üzərində çalışıram. Daha bir işim isə Azərbaycanda işlədiyim illərdə arxivlərdən topladığım faktlar əsasında 1918-22-ci illər arasında 4 il ərzində Azərbaycan-Türkiyə münasibətlərini ələ alan bir kitab olacaq. İnşallah, yaxın zamanlarda onun da işıq üzü görməsinə şahid olacağıq. Çünki arxivlərdə Azərbaycan və Türkiyə münasibətlərinə dair çoxlu sayda faktlar var. Onların üzə çıxarılması lazımdır. Azərbaycan və Türkiyədə gənc insanlar öz gerçək tarixlərini bilməlidirlər. Azərbaycan kimi vətənsevər insanların yaşadığı ölkədə gənclərin öz gerçək tarixlərini yaxşı bilərək yetişməsi lazımdır.

Tarixçi professor Cəmil Həsənli, sabiq təhsil naziri Firudin Cəlilov kimi gerçək tarixçilər, araşdırmaçılar yazmalıdır. Gənclərə həqiqi tarixımiz öyrədilməlidir. Onların kitabları Azərbaycanda, Türk dünyasında yayılmalıdır ki, insanlar həqiqi tariximizi bilsinlər. Ona görə də mən də öz payıma düşən işləri görməyə çalışıram. Gündəlik siyasi proseslərə qarışmıram, amma izləyirəm, o cümlədən Azərbaycanda, Türk dünyasında nə olub bitdiyini izləməyə çalışıram. Başqa bir xüsusi işim yoxdur.

***- Sizin üzərində çalışdığınız kitablardan biri də "erməni məsələsi" ilə bağlıdır. Rəsmi Ankaranın Ermənistan siyasətini də yaqin ki, izləyirsiniz. Türkiyə hökumətinin son illərdə Ermənistanla münasibətlərlə bağlı siyasətini necə qiymətləndirirsiniz? Bu siyasətin müsbət nəticə verəcəyini düşünürsünüz?***

- Türkiyənin Ermənistanla bağlı siyasəti dəyişməyib. Bunun da səbəbi aydındır: Ermənistan konstitusiyasında birbaşa Türkiyəyə qarşı ərazi iddiası irəli sürüb, bizim torpaqlara iddia edir. Eləcə də "soyqırıma" vurğu edir. "Böyük Ermənistan" iddiası ortaya atır. Bu isə Türkiyənin mövcud torpaqlarına iddia edir.

İkincisi isə Ermənistan hələ də Azərbaycanın torpaqlarını işğal edərək əlində saxlayır. Belə bir durumda Türkiyənin Ermənistana yönəlik siyasəti necə dəyişə bilər. 20-ci əsrin əvvəllərində ermənilər ruslara sığınaraq Şərqi Anadoluda



minlərlə türkü qətlə yetirib. Bu gün də Şərqi Anadolunu gəzin Qars, Ərdahan, Elazığ, Bayburt, Van və digər şərq ərazilərində istədiyiniz qapını döyün qarşınıza çıxan adamdan soruşsanız, hər kəsin nəslindən ən azı iki adamın ermənilər tərəfindən qətlə yetirildiyini deyəcəklər.

***- Amma bir ara sərhədlərin açılması məsələsi gündəmdə idi...***

- Bu, mümkün deyil. Çünki Ermənistan özü düşmənçiliyi davam etdirir. Hələ də konstitusiyasında "Böyük Ermənistan" iddiasını saxlayır. Hələ də orta məktəblərdə uşaqları türkə nifrətlə böyüdürlər. Üstəlik, Azərbaycan torpaqlarını işğal edərək hələ də əlində saxlayır. Belə bir durumda Türkiyə hökuməti necə sülh bağlaya bilər? Türkiyənin şərti var. Ankara tələb edir ki, Ermənistan Türkiyəyə qarşı ərazi iddialarından vaz keçsin, ikincisi isə Azərbaycanın işğal olunmuş torpaqlarını azad edib törətdiyi soyqırıma görə üzr istəməlidir.

Azərbaycanda da bəzi ağzıgöyçəklər deyir ki, Türkiyə ticarət etmək üçün Ermənistanla sərhədləri açar. Bu adamlar düşünmür ki, Ermənistanda 1,3 milyon əhali qalıb, ölkə isə zatən kasıbdır. Ona Türkiyə nə ticarət edəcək? Türkiyənin ticarət edəcəyi 10 milyon Azərbaycan əhalisi, 300 milyonluq türk dünyası var.

***- Seçkiləri necə qiymətləndirdiniz? Hansı dəyişikliklər olacaq?***

- Hardakı seçkiləri?

***- Türkiyədəki seçkiləri...***

- Mən Azərbaycanda olanda hər dəfə seçkilərdən sonra soruşurdular ki, Azərbaycanda keçirilən seçkiləri necə gördün? Mən də deyirdim ki, məndən niyə soruşursunuz, siz özünüz necə gördünüz? Türkiyə ilə müqayisə edin. Öz ölkənizdəki seçkilərə və bir də Türkiyədəki seçkilərə baxın.

Kim nə deyirsə-desin, Türkiyədə seçicilərin hardasa 90 faizi seçkilərdə iştirak edib. Dünyanın çox az demokratik ölkələrində bu qədər iştirak olmur. Dünyanın geri qalanında, Qafqaz və Yaxın Şərqdə, Orta Asiyada onsuz da demokratik seçki olmur. Türkiyədə əhalinin 90 faizi seçkidə iştirak edib və 49 faizi bir partiyanı seçib. Və bu səslər 4 saata sayılıb. Bir vətəndaş belə etiraz edib səsinin itdiyini deyə bilmir. Əhali verdiyi səsi görüb. 80 milyonluq Türkiyədə bir-iki terror olayları istisna olmaqla, seçkiyə etiraz olmadı. Xalqın azad iradəsi ilə seçki keçirilib. Hər kəsə bərabər imkan yaradılıb. Təbii ki, Türkiyədə demokratiya ideal deyil, amma böyük inkişaf var. Əgər əhalinin 90 faizi seçkiyə gedirsə, siz ondan səsini oğurlaya bilməzsiniz.

***- Amma qəribə də olsa seçkinin nəticələri 5 ay əvvəl iyunda keçirilən seçkinin nəticələri ilə müqayisədə kəskin fərqləndi. Bu fərq, yəni yenidən AKP-yə yüksək etimadın səbəbi nə idi, sizcə?***

- Əhali baxdı ki, siyasi anlaşmazlıqlar, koalisiya müzakirələri zamanı ölkədə istiqrar azalır, terror böyüyür, iqtisadiyyat zəifləyir. Ona görə də təkpartiyalı hökuməti daha sərfəli gördü. Təbii ki, koalisiya demokratiyada olan hadisədir. Amma Türkiyədə partiyalar koalisiya hökuməti qurmadılar. Burda vətəndaşın xətası yoxdur, siyasilər anlaşa bilmədilər. Və bunun cəzasını seçkidə çəkdilər. Əgər koalisiya baş tutsaydı, indi qazanan partiya tezliklə seçkilər olsaydı, daha az səs alardı.

***- Necə düşünürsünüz, yeni dönəmdə Türkiyə hökumətinin xarici siyasətində dəyişiklik olacaqmı?***

- Türkiyənin Mustafa Kamal Atatürk zamanından təməl bir milli siyasəti vardır: Yurdda sülh, cahanda sülh. Mustafa Kamal və dostları Anadoluda azadlıq savaşı başladıb ilk olaraq Anadolunu işğaldan azad edib, daha sonra da ölkəni bütövlükdə azad edib bu dəyəri ortaya qoyublar. Yurdda sülh, dünyada sülh. Məhz ondan sonra 1,5 il əvvəl savaşdıqları Yunanıstanla sülh bağlayıblar. Rusiya, Fransa, Britaniya, İtaliya və o cümlədən sərhəd olduğu bütün ölkələrlə dostluq münasibətləri qurublar. Və bu dostluq bu günə qədər gəlib. Türkiyə dünyada ən çox ölkə ilə sərhədi olan dövlətdir, 12 dövlətlə sərhədi var. Bu günə qədər də belə davam edib. Lakin indi bəzi qonşu ölkələrlə problemləri vardı. Məsələn, Suriya kimi. Lakin Suriya heç zaman Türkiyənin dostu olmayıb, PKK-nı bəsləyən Suriya və Fələstin olub.

Türkiyənin Atatürk zamanından qoyulan xarici siyasət kursu dəyişmədən davam edir. Bəzi kiçik sapmalar olsa da, düşünürəm ki, yaxın zamanlarda onlar da düzələcək.

Siz Türkiyədəki seçkiləri soruşdunuz. Eyni gündə Azərbaycanda da seçkilər oldu. Mənim könlüm istərdi ki, Azərbaycanda da demokratiya bərqərar olsun. Öz milli sərvətlərini qoruyaraq, faydalı şəkildə istifadə edərək rifah içərisində yaşayan bir dövlət olsun. Ən çox arzuladığım arzulardan biri budur. O gözəl ölkə, gözəl xalq buna layiqdir.

***- Uzun illər Azərbaycanda çalışmış diplomat olmusunuz. Azərbaycanın indiki xarici siyasət kursunu necə qiymətləndirirsiniz?***

- Azərbaycan elə bir anaforun içinə girib ki, artıq çıxması mümkün deyil. Rusiya Azərbaycanı artıq hər tərəfdən əhatə edib. Artıq elə bir vəziyyət yaranıb ki, Azərbaycan artıq Rusiyaya heç nə deyə bilməz. Bir neçə mərtəbədən sonra Azərbaycan müstəqilliyini itirə bilər. Çünki cənubdan İran, şimaldan isə Rusiya artıq Azərbaycanı sıxır.

***- Amma Azərbaycanın Türkiyə kimi müttəfiqi var. Türkiyə Azərbaycanın suverenliyinə təhdid yarandığı zaman sakit qalacaq?***

- Türkiyə nə edəcək? Türkiyənin qarantiya etdiyi sadəcə Naxçıvandır. Türkiyə nə edə bilər, bir halda ki, Azərbaycan özü Rusiyanı dəvət edir. Rusiya gəlib Xəzərin cənubundan Suriyaya raket atır. İndi də İranla Rusiya Xəzərdə birgə hərbi təlimlər keçir. Amma 14 il əvvəl İran gəmiləri Azərbaycanın Xəzərdəki yataqlarına müdaxilə edəndə nə baş verdi? Türkiyənin qırıcıları gəlib hava dəstəyi verdilər, güc göstərdilər. Amma indi nə oldu? Azərbaycan Rusiyanın Xəzərdə İranla birgə hərbi təlimlərinə imkan verir. İki il əvvəl Putin Azərbaycana rus hərbi gəmiləri ilə gəldi. Hansı ki, müstəqillikdən bu yana belə olmamışdı.

Hələ bir də bu şərtlərdə Rusiyanın Qarabağı geri verəcəyinə inanırlar. Bu şərtlərdə Qarabağı unutmalı olacaqsınız. Hakimiyyətin bu cür xarici siyasət apardığı müddətdə Qarabağı geri ala bilməyəcək. Qarabağı milli bir iqtidar qaytaracaq.

Rusiyanın özü də çətin durumdadır. İqtisadiyyatı çökür, istehsal azalıb, neft qiymətləri düşüb. Rusiyada böyük hadisələr baş verəcək, onun qarşısını kimsə ala bilməyəcək.

Azərbaycanın xarici ölkələrdə yüzminlərlə savadlı, yüksək təhsilli, dünyanı dərk edən gəncləri var. Bu gənclərin böyük əksəriyyəti sabah Azərbaycana geri dönəcək, onların ölkələrini sahibsiz buraxması mümkün deyil. Azərbaycanın indiki durumu ürəkaçıcı görünmür. Bunu mən Azərbaycanın dostu olaraq söyləyirəm.



**"Türkiyənin Ermənistan siyasəti dəyişməyəcək"; "Xalq seçkilərdə koalisiyada anlaşa bilməyən siyasi partiya liderlərini cəzalandırdı"**



**Kənan RÖVŞƏNOĞLU**

# SOCAR-ın erməni kilsələrinə pulsuz qaz verməsinə iki baxış...

**“Biz Gürcüstanda olan 440-a yaxın kilsə, məbəd və məscidlərə pulsuz qaz verməyə başladıq. Həmçinin erməni kilsələrini də qazla təmin edirik. Allah yolunda. Bizim erməni kilsəsi ilə heç bir düşmənçiliyimiz yoxdur”.**

**Bunu ANS-ə müsahibəsində SOCAR-ın prezidenti Rövnəq Abdullayev** bildirib. SOCAR prezidentinin sözlərinə görə, bu addım Azərbaycan prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən atılıb: “Cənab prezidentin sərəncamı ilə bütün dini məbədlər qazla pulsuz təmin olunur. Bizdə bütün dini məbədlər qazla təmin olunur. Eyni zamanda dövlət başçısı Gürcüstanda yaşayan azərbaycanlıları da düşünərək, bu ölkədəki dini məbədlərin də qazla pulsuz təmin olunmasına göstəriş verdi. Prezident istəyir ki, Azərbaycanda olan tolerantlıq Gürcüstanda da olsun. Əgər dini tolerantlıq olarsa, bizim soydaşlarımıza orda yaşamaq daha rahat olar. Ona görə də biz Gürcüstanda olan 440-a yaxın kilsə, məbəd və məscidlərə pulsuz qaz verməyə başladıq. Həmçinin erməni kilsələrini də qazla təmin edirik. Allah yolunda. Bizim problemimiz Ermənistan hökumətinin başında duran bəzi insanlardır. İndi görürsünüz ki, orada nə qədər narazılıqlar var. Xalqın günahı yoxdur ki. Azərbaycanın tolerant xalq olduğunu cənab prezident bir daha sübut etdi”.

Qeyd edək ki, Azərbaycanın Gürcüstanı kifayət qədər güzəştli şərtlərlə mavi yanacaqla təmin etməsinin qarşılığında rəsmi Tiflisin bəzi anlaşılmaz hərəkətlər etməsi, Rusiyanın “Qazprom” şirkəti ilə qaz idxalı ilə bağlı danışıqlar aparması birmənalı qarşılanmır. Üstəlik, SOCAR-ın dini məbədləri pulsuz qazla təmin etməsi, bu sırada erməni kilsələrinin də olması Azərbaycanda etirazlar da doğurur.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bu barədə danışarkən SOCAR prezidentinin son açıqlamasına xüsusi diqqət çəkdi:** “Rövnəq müəllim bildirdi ki, biz bununla tolerant siyasət yürütdüyümüzü nümayiş etdiririk. Azərbaycanda necə ki, dini məbədlərin qaz təminatı Azərbaycan Respublikası prezidentinin göstərişi ilə pulsuz həyata keçirilirdi, bunu İlham Əliyevin təşəbbüsü ilə Gürcüstanda da tətbiq ediblər. Rövnəq müəllim bir məsələni də vurğuladı ki, erməni kilsələrinə qaz verilməsini də ”SOCAR Georgia Gas" pulsuz həyata keçirir. Çünki bizim erməni xalqı ilə heç bir ədavətimiz yoxdur, yaranmış məsələ Ermənistanın rəhbərliyinin yeritdiyi siyasi kursun nəticəsidir. Yəqin ki, Dağlıq Qarabağ münaqişəsini, Azərbaycan torpaqlarının işğalı məsələsini nəzərə çatdırmaq istəyirdi. Bu, məncə, normal bir izah idi".

**Ancaq İ.Şaban əlavə etdi ki, onun anlaya bilmədiyi bir məsələ var:** “İndiyə kimi Azərbaycan bu faktdan niyə yararlanmayıb? Yəni söhbət Azərbaycanın xoşməramlı bir humanitar missiyasından gedir. Axı SOCAR neçə ildir ki, belə bir missiyanı həyata keçirir. Azərbaycana qarşı olan qüvvələr və rəsmi İrəvan Azərbaycanı həmişə onda günahlandırır ki, ”Dağlıq Qarabağ ermənilərinin Azərbaycan tərkibində yaşayıb-yaratması mümkün olası bir məsələ deyil, çünki onlara daim təzyiqlər olacaq". Ancaq Gürcüstanda olan bu prosesdən kifayət qədər yararlanmaq olardı. Allahşükür Paşazadə Tiflisə səfər edə bilərdi, “SOCAR Georgia Gas” rəhbərliyinin iştirakı ilə erməni kilsələri nümayəndələri və Arxiyepiskopu arasında bir təmas olardı. Bu amilin üstündən isə Azərbaycan özü sükutla keçdi. Və nəticədə SOCAR-ın vəsaiti, belə demək mümkündürsə, boş-boşuna həmin erməni kilsələrini qızdırır, bizə hansısa divident gətirmədən".



**İlham Şaban: “SOCAR-ın vəsaiti, belə demək mümkündürsə, boş-boşuna həmin erməni kilsələrini qızdırır, bizə hansısa divident gətirmədən”**



**Fikrət Yusifov: “Biz Gürcüstan ərazisində olan bir neçə yüz kilsəyə qaz verib 5-10 erməni kilsəsinə münasibətdə ayrı-seçkilik qoyacaq qədər cılız ola bilməzdik”**

**Ekspert bildirdi ki, yəqin bu məsələ dövlət siyasətindən qaynaqlanır:** “Azərbaycana gələn hansısa xarici futbol komandasının tərkibində belə erməni olmasın... Baxın, belə addımlarla Azərbaycan öz imicinə nə qədər ziyan vurur. Halbuki bu gün bir neçə yerə parçalanmış və aralarında siyasi baxışlarına görə ziddiyyətlər olan erməni lobbisindən belə yararlanmaq mümkün idi, əgər düşünülmüş siyasət yeridilərdisə. Axı dövlətlərin hansı siyasət yeritməyindən asılı olmayaraq Gürcüstanda da, Rusiyada da və digər ölkələrdə də azərbaycanlı-erməni əlaqələrinin mövcudluğunu heç kəs inkar etmir”.

**Sabiq maliyyə naziri Fikrət Yusifov isə “Yeni Müsavat”a dedi ki, SOCAR-ın bu addımı təqdirəlayiqdir:** “Bu addımla Azərbaycan bir daha bütün dünyaya göstərdi ki, bizdə tolerantlıq sözdə deyil, əməldədir və biz erməni xalqı ilə erməni seperatçılarını bir-birindən fərqləndiririk. Biz Gürcüstan ərazisində olan bir neçə yüz kilsəyə qaz verib 5-10 erməni kilsəsinə münasibətdə ayrı-seçkilik qoyacaq qədər cılız ola bilmərik. Hər şeydən öncə kilsə Allah evidir, Allah isə bütün insanlar üçün birdir. Bu addımın maddi tərəfləri SOKAR üçün nəzərəçarpacaq səviyyədə deyil, lakin onun mənəvi tərəfləri çox əhəmiyyətlidir”.

**F.Yusifovun sözlərinə görə, bu, həm də bütün seperatçı ermənilərin üzünə çox sərt silləyə bərabər bir addımdır:** “Bu yaramazların üzündən bütün erməni xalqı 20 ildən artıqdır ki, ağır məhrumiyyətlər içində yaşayır. Son zamanlar erməni xalqının sağlam düşünən böyük əksəriyyəti hakimiyyəti qəsb etmiş bir qrup qaniçən erməni rəhbərlərinin onların başına gətirdikləri oyunlara qarşı daha ciddi bir şəkildə müqavimət göstərməyə başlayıblar. SOCAR-ın bu jesti isə belə düşüncədə olanlara bir daha göstərdi ki, biz erməni xalqı ilə düşmən deyilik, bizim düşmənimiz bu gün onların başında dayanmış, əli Xocalı şəhidlərinin qanına bulaşmış sarkisyanlardır”.

❑ **Cavid TURAN**

# Neft bahalaşa bilər



## “Bir çox ölkələrdə qış sərt keçsə, yanacağa tələbat və müvafiq olaraq neftin qiyməti də artacaq”

**Xəbər verdiyimiz kimi, dünya bazarında neftin bahalaşması qeydə alınıb. Belə ki, birjalarda olan satışlar üzrə hesabata görə “Brent” markalı neftin qiyməti 0.91% artaraq 0.43 USD bahalaşıb. Bu bahalaşma ilə “Brent” markalı neftin qiyməti 47.85 dollara çatıb. Günorta saatlarında isə bir qədər də bahalaşaraq 47,96 dollara yüksəlib.**

Bu cür bahalaşma “Texas” markalı neftdə də qeydə alınıb. Son məlumatlara görə, “Texas” markalı neftin qiyməti 0.88%, yəni 0.39 dollar artaraq 44.68 dollara çatıb.

Neftin bahalaşması bu prosesin davamlı olub-olmayacağı ilə bağlı suallar yaradır. Digər tərəfdən, Azərbaycan da daxil olmaqla, iqtisadiyyatı neftdən asılı olan ölkələrdə böhran vəziyyətinin yaxşılaşacağı ilə bağlı ümid yaradır. Bəs görəsən, iqtisadçılar neftin bahalaşmasını ciddi bir tendensiya kimi dəyərləndirirmi? Qarşıdakı aylarda neftin dünya bazarında qiyməti hansı həddə qədər yüksələ bilər? “Qara qızıl”ın qiymətində baş verəcək dəyişiklikləri hansı amillər şərtləndirir?

**“Yeni Müsavat”ın suallarını cavablandıran Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban neftin qiymətində kəskin bahalaşma və ya ucuzlaşma tendensiyasının gözlənilmədiyini bildirdi:** “Bu elə də ciddi bahalaşma deyil. Neftin qiyməti heç 48 dollara gəlib çatmayıb. Hazırda bir barel neftin qiyməti 47,96 dollardır. Ötən cümə günündən etibarən neftin qiyməti 48 dollardan aşağıdır. Dünya bazarında hansısa ümidverici bir məlumat yoxdur ki, onun fonunda qiymətlər bundan sonra da yüksəlsin. Digər tərəfdən, dolların avro ilə kursunda korreksiya gedir, yəni əvvəlcə ucuzlaşma, sonra bahalaşma oldu. Neftin qiyməti də buna uyğun olaraq əvvəlcə, 47,6 dollar idi, indi isə 47,9 dollardır. Böyük mənada bu bazar üçün stabil qiymət deməkdir. Yəni noyabr ayı başlayandan dünya bazarında neftin qiyməti 48 dollar ətrafında stabilləşib”.

**Ekspert onu da vurğuladı ki, qarşıdakı dövr üçün neftin ucuzlaşmasını şərtləndirən bir çox amillər var:** “Hələ ki praktik olaraq İran nefti dünya bazarına çıxmayıb. Proqnozlara görə, İran noyabr ayının ikinci yarısında da neftini bazara çıxarmalı idi. Ola bilər ki, bu proses dekabr ayının əvvəlinə kimi uzansın. O zaman birjalara neqativ təsir göstərəcək. Bu, qaçılmazdır və nə qədər davam edəcəyini proqnozlaşdırmaq çətindir. Ancaq müəyyən dövrdən sonra bazarda tarazlıq yaranacaq. İndi 50 dolların altında olan bir qiymətlə bazarda stabillik var. Bir faktı da nəzərə almaq lazımdır ki, oktyabr ayının yekunlarına görə, ”Brent" markalı neftin qiyməti 49 dollar civarında olub. Sentyabr ayında isə orta qiymət 49,04 dollar idi. Yəni sentyabr və oktyabr aylarında qiymətlər stabil olub. Noyabr ayında bir qədər ucuzlaşma olub, ancaq böyük bir korreksiya yoxdur. 1 dollar ucuzlaşma bazar üçün hansısa bir təlatüm demək deyil. Dekabr ayında müəyyən faktorlar, məsələn, İran neftinin bazara çıxması neftin ucuzlaşmasına səbəb olarsa da bu qısa müddətdə özünü bərpa edəcək və stabillik yaranacaq. Çünki sinoptiklər ötən illə müqayisədə, xüsusən şimal yarımkürəsində qış mövsümünün həddindən artıq sərt keçəcəyini proqnoz edirlər. Qış sərt keçərkən yanacağa tələbat artır və tələbatın artması enerji daşıyıcılarının, həm neftin, həm də qazın qiymətini artıra bilər".

**Növbəti il üçün proqozlaşdırılan dövlət büdcəsində neftin qiymətinin 50 dollardan hesablanmasına münasibət bildirən İlham Şaban bunun düzgün hesablanmış bir rəqəm olduğunu qeyd etdi:** “İstər Beynəlxalq Valyuta Fondu, istər Dünya Bankı, istərsə də Beynəlxaq Enerji Agentliyinin gələn il üçün verdiyi proqnozlara görə, neftin orta qiyməti 56-58 dollar arasında dəyişəcək. Yəni Azərbaycanın növbəti il üçün proqnozlaşdırılan dövlət büdcəsində neftin 50 dollardan götürülməsi məqbul haldır. Bir çox neft şirkətləri də öz büdcələrini 50 dollardan proqnoz edirlər. 2016-cı ildə neftin qiymətinin orta həddinin 50 dollardan aşağı düşəcəyini proqnozlaşdırmaq çox çətindir. BP şirkətinin iqtisadçıları neftin gələn il üçün qiymətinin 40 dollar həddinə qədər düşəcəyini proqnoz ediblər. Bu bir sıra faktorlarla izah olunur: Amerika neftinin bazara çıxarılması ilə bağlı məlumatların açıqlanması, əhalinin gəlirlərinin açıqlanması, yay mövsümünün gəlməsi və sair. Fəsillə əlaqədar istehsalçı ölkələrdə baş verən iqtisadi faktorlarla əlaqədar da neftin ucuzlaşması özünü büruzə verir. Necə ki, bu il avqust ayının 24-də ”Brent" markalı neftin qiyməti 42 dollara düşdü. Bu, cari ildə neftin qiymətinin ən aşağı həddi idi. Bu da onunla əlaqədar idi ki, Çində birdən-birə valyuta kəskin ucuzlaşdı, eləcə də Fond Birjası çökdü. Belə bir hadisəni heç kim proqnoz etməmişdi. Bəzi ölkələr üçün 2016-cı ildə də bu kimi hallar təkrar oluna bilər və bu, birjalara təsir edərək qısa müddət ərzində neftin qiymətini kəskin ucuzlaşdıra bilər. Ancaq bu o demək deyil ki, neftin orta qiyməti 55 dollardan aşağı olacaq. Çünki bütün iri hasilatçı şirkətlər özlərinin kapital qoyuluşlarını təqribən 20-05 faiz azaldırlar. Kapital qoyuluşlarının azaldılması o deməkdir ki, şirkətlər yeni quyuların qazılmasını dayandırırlar və ya bu prosesi zəiflədirlər, bazara çıxarılan neftin həcmini azaldırlar. Bu isə bazarda hasilatla bağlı proseslərdə özünü göstərməlidir. Ümumilikdə dünya miqyasında hasilatın azaldılması gözlənilir. Hasilat azalarsa, tələblə təklif uzlaşacaq və neftin qiyməti artacaq".

❑ **Nərgiz LİFTİYEVA**




# Azərbaycan-Gürcüstan sərhədində vəziyyət nə vaxt düzələcək?

## "Borçalı" Cəmiyyəti problemlərlə bağlı monitorinq aparacaq

**Azərbaycan-Gürcüstan sərhədində illərdir davam edən problemlər bitmək bilmir. Belə ki, noyabrın 8-də Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sınıq Körpü" gömrük keçid məntəqəsində qeyri-iş günü ilə bağlı qonşu ölkəyə gedən vətəndaşların sayının artması sıxlığın yaranmasına səbəb olub.**

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** problemlərin günbəgün artdığını söylədi: "Soydaşlarımızın bu məsələdə ciddi problemləri var. Prezidentimiz Gürcüstana səfəri zamanı bu məsələləri dilə gətirdi. Sərhəd hər bir dövlətin tanınma nişanıdır. Təəssüf ki, Azərbaycan-Gürcüstan sərhədindəki dərəbəylik dünyanın heç bir sərhədində yaşanmayıb. Kobudluq, etik qaydalara əməl olunmaması, insanlarla bir əşya kimi davranılması Azərbaycan haqqında heç zaman müsbət imic formalaşdırmayıb. Bu məsələlər bir göstərişlə həll olunası deyil. Ciddi islahatlara ehtiyac var. Bu islahatlar bütün istiqamətləri əhatə etməlidir. Vətəndaşların ən kiçik əşyalarının belə soyğunçuluğa məruz qalması yolverilməzdir. Cəmiyyət olaraq bir dəfə monitorinq aparmışıq. İki gün nümayəndə heyətimiz Gürcüstan və Azərbaycan sərhədlərində davranış qaydaları və digər məsələlərlə bağlı müşahidələr aparıblar, müvafiq qurumlara sorğular veriblər. Bunun müqabilində dövlət başçısına, aidiyyəti qurumlara təkliflərimizi vermişik. İnsanlarımızı incidən amillərlə bağlı təxirəsalınmaz işlərin aparılmasının vacibliyini vurğulamışıq. Təəssüf ki, islahatlar aparılmadığı üçün dediklərimiz havada qalıb".

**Z.Məmmədli rəhbəri olduğu qurumda noyabrın 8-də problemlərlə bağlı bir daha müzakirələr aparıldığını qeyd etdi:** "Bu məsələni bir daha cəmiyyətimizin idarə heyətində müzakirə etdik. Yenidən monitorinq qrupunun müşahidələr aparmasının vacibliyini vurğuladıq. Yəqin ki, yaxın günlərdə bu işi həyata keçirəcəyik. Çalışacağıq ki, bir media orqanının nümayəndəsi də olsun. Qurum olaraq üzərimizə düşən işləri həyata keçiririk. Amma təəssüflər olsun ki, hərəkət yoxdur. Azərbaycanda müəyyən islahatların aparılmaması, MTN daxil, bəzi qurumların cinayətkar yuvalara dönməsi, rüşvətxorluğa hər kəsin aludə olması bu problemlərin həllinə imkan vermir. Müəyyən göstərişlərlə məsələ bir az səngiyə bilər. Amma bu da heç nəyi həll etmir. Kadrların dəyişməsinə ciddi ehtiyac var. Gənc, Avropa təhsili görmüş, milli ləyaqəti olanların bu vəzifələrə təyin olunması çox vacibdir. Əmək haqlarının normal olması da vacib şərtlərdən biridir. Belə olduqda insanların cibinə girmək kimi utancverici işlərdən əl çəkərlər. Bunlar təkliflərimizdir. Son zamanlarda bizdə ümidlər yaranıb ki, prezident səviyyəsində islahatlar aparılmasına start verilir. İslahatlar aparılmasa, sərhədlərimiz daim bizə utanc gətirən səviyyədə olacaq. Biz də bayrağımızda əks olunan dəyərlərə sadiq millətik. Sizin də mətbuat olaraq, bu məsələni gündəmə gətirməyinizdə fayda var. Sizli-bizli bir yerdə ictimai rəyi bu məsələyə yönəltməliyik. Hökumət orqanlarının üzərinə getməliyik. Basqılarımız ardıcıl olmalıdır ki, soydaşlarımız Gürcüstanda layiqli vətəndaş olaraq yaşasınlar. Azərbaycana qürur mənbəyi kimi baxsınlar. Sərhədi keçəndə onları xoş üzlə qarşılayıb, bu şəkildə də yola salsınlar. İnsanları istismar etmək olmaz. Təsəvvür edin ki, Gürcüstandan insanlar ölkəmizə öz minik maşınları ilə gəlirlər. Azərbaycanda bir qayda tətbiq ediblər. Vətəndaşın maşınına depozit qoymaqla bağlı. Bunlar ayıb olan hallardır. Bir insan iki günlük Azərbaycana gəlir. Maşınını satmalıdır? Qanundan kənar bu işlər pul qoparmaq, insanları istismar etmə yollarından biridir. Bu problemlər aradan qaldırılmalıdır".

❑ Cavanşir ABBASLI

# Müxalifətsiz Milli Məclis - keçmiş deputatlar nə düşünür?

**Azərbaycanda daha bir parlament seçkiləri arxada qaldı. 1 noyabrda keçirilən seçkilərlə bağlı MSK-nın verdiyi açıqlamaya əsasən, YAP mandatların mütləq əksəriyyətini əldə edib. Hakim partiya Milli Məclisdə 71 deputatla təmsil olunacaq. Yerdə qalanlardan 42 nəfəri bitərəfdir. 12 mandat isə 11 partiya arasında bölünüb.**

## "Azərbaycanda normal konstruktiv müxalifətin formalaşması prosesi gedir..."


Məlahət İbrahimqızı


Fəzail Ağamalı

Bir sıra siyasi müşahidəçilər hesab edirlər ki, 2015-ci il seçkilərindən sonra Milli Məclis tam olaraq müxalifətsiz fəaliyyət göstərəcək. Bəs müxalifətsiz parlament necə olacaq?

Məsələ ilə bağlı musavat.com-a açıqlamasında **YAP Siyasi Şurasının üzvü, sabiq deputat Məlahət İbrahimqızı** bildirdi ki, Milli Məclisin müxalifətsiz fəaliyyət göstərəcəyini söyləmək doğru deyil: "Bu il keçirilən seçkilər nəticəsində müxalifətdən olan şəxslər də seçilib. İndi hansı partiya seçkilərə qatılmayıbsa, bu da onların öz qərarıdır. Seçkidə iştirak etmək hər kəsin öz istəyi ilə olan məsələdir. Bəzilərinin fikri belədir ki, deyirlər biz varıqsa, müxalifət var, yoxuqsa, yoxdur. Yaxud da hesab edirlər ki, onlar varsa, seçki doğru keçirilib, yoxdurlarsa, saxtakarlıq olub. Ancaq belə deyil axı".

**Ana Vətən Partiyasının sədri, keçmiş deputat Fəzail Ağamalı da oxşar mövqedədir:** "Bəziləri düşünür ki, Azərbaycanda müxalifət varsa, bu, Müsavat Partiyası və AXCP-dir. Məgər müxalifət küçəyə çıxıb yumruqlarını göyə qaldıran və inkar mövqeyində dayanan, dövlətin əldə etdiyi uğurları qəbul etməyərək radikal müstəvi üzərində fəaliyyət göstərənlərdirmi? Bu suala cavab verilməlidir. Mənə elə gəlir ki, dünyanın istənilən demokratik ölkəsində bu cür meylli partiyaların ictimai-siyasi həyatda yeri yoxdur. İndi daha çox dini xarakter daşıyan cərəyanlar, radikalizm tüğyan edir. Xüsusən də bu, müsəlman ölkələrində daha çox nəzərə çarpır. Eyni zamanda artıq Qərb ölkələrində də bir islamafobiya var. Onlar da getdikcə millətçilik və dini radikalizmi önə çəkərək, bunu ictimai-siyasi gündəmə gətirməyə çalışırlar. Hesab edirəm ki, bütün bunlar anormallıqdır. Müxalifətçilik əslində proqramı və əməli fəaliyyəti ilə cəmiyyətə özünü təqdim etməkdir. Eyni zamanda müxalifət sosial dayaq qazanaraq, ictimai rəydə həlledici mövqeyə sahiblənərək, ətrafına insanları toplayıb, hakimiyyətə gəlmək məqsədi güdən siyasi bir anlayışdır".

**F.Ağamalıya görə, bu gün Milli Məclisdə fəaliyyət göstərən yetərincə müxalifyönlü deputat var:** "Bu deputatlar da öz fikirlərini sərbəst şəkildə ifadə edib, cəmiyyətdə çatışmayan cəhətlərin üzərinə gedirlər. Eyni zamanda onlar iqtidarın fəaliyyətindəki nöqsanları önə çəkirlər. Lakin onlar konstruktiv mövqe tutaraq Azərbaycan dövlətinin uğurlarını da etiraf edirlər. Milli maraqlar məsələsində iqtidar-müxalifət münasibətlərini kənara qoyurlar. Milli Məclisdəki çıxışlara, orada baş verən hadisələrə verilmiş reaksiyalara baxmaq lazımdır. Bu reaksiyaların bütövlükdə mahiyyəti, onun ardıcıl xarakter daşıması göstərir ki, bu gün Azərbaycanda normal konstruktiv müxalifətin formalaşması prosesi gedir. Bəziləri düşünürlər ki, Azərbaycanda müxalifət yalnız Müsavat Partiyasıdır, bir də AXCP. İndi Ümid Partiyasını da siyahıya qoşmaq istəyirlərsə, artıq bu onların öz işidir. Bütövlükdə deyərdim ki, Azərbaycanda normal siyasi debatların, diskussiyaların aparılması üçün Milli Məclis formalaşıb".

❑ Əli RAİS

# Gənclərin yaratdığı "AĞ blok" partiyaya çevrilir

## Qurumun təsisçisi Türkiyənin hakim partiyasının timsalında yeni qurum yaradacaqlarını bəyan etdi

**Noyabrın 1-də keçirilən parlament seçkiləri bitsə də, hazırda hər kəsi seçki ətrafında yaranan blokların taleyi maraqlandırır. Əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də siyasi birliklərin taleyi qısamüddətli olacaq? Bu sual hələ də cavabsız qalır...**




Seçkilərdən sonra ölkə müxalifətinin sərgilədiyi susqun mövqe seçki ətrafında yaranan blokların qısa zamanda dağılacağı anlamına gəlir. Əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə nəticələrə ciddi etirazın şahidi olmadıq. Demokratik düşərgə seçkilərin nəticələrini tanımamaqla bağlı bəyanatlar verməklə işini bitmiş hesab etdi.

Seçkilərə 4 namizədlə qatılan, əsasən gənclərdən təşkil olunmuş "AĞ blok"un təsisçisi Tural Abbaslıdan qurumun taleyi ilə bağlı ümumi dəyərləndirmə aldıq.

**Blokun təsisçisi bildirdi ki, seçkilərdə maneələrə baxmayaraq, uğurla çıxış ediblər:** "4 namizədlə seçkilərdə iştirak etdik. Hər bir namizədimiz iddiaçı olduğu dairədə favorit idi. Bunu tam məsuliyyətimlə deyirəm. Yaradılan məhdud imkanlara, hakimiyyətin maneələrinə baxmayaraq, yüksək səviyyədə seçki kampaniyası apardıq. Namizədlərimizə yerli icra orqanlarından təzyiqlər, şirnikləndirici təkliflər oldu. Bu, namizədlərimizin favorit olduqlarının göstəricisi idi. Neçənci yer tutmağımıza gəldikdə isə mən də daxil olmaqla, hakimiyyət səslərimizi azaltmaqla məşğul oldu. Əlimizdə protokollar var ki, axşam 100-dən çox səs yazılıb, amma səhər 50-dən aşağı salınıb. İqtidar təkcə namizədinin səsini şişirtmədi, eyni zamanda rəqiblərin səslərini azaltdı. Bu baxımdan sıralamalara ciddi yanaşmırıq. Yeni qüvvələr olaraq seçkilərdə iştirak etdik. İnsanların yeniliyə tam açıq olduqlarını gördük. Yeni üzlər görən insanlar daha çox prosesə qoşulmağa həvəsli olurlar. Bu da bizim "yenilənmə olmalıdır" fikirlərimizi təsdiq etdi. Hazırda namizədlərimizin şikayətlərinin hazırlanması mərhələsindəyik. Azərbaycanda haqqımızı müdafiə edə bilməsək, Avropa Məhkəməsinə qədər gedəcəyik. Hüquqi addımlarımızı sona qədər atacağıq. Qeydə alınmayan iki namizədimiz-Əhəd Məmmədli və Kərim Ağarzanın işi artıq Avropa Məhkəməsinə hazırlanır. Seçkinin son akkordlarını vururuq. Seçkilərdə qarşımıza qoyduğumuz hədəflərə çatdıq. Çünki hakimiyyətin saxtakarlıqdan əl çəkəcəyinə ümid az idi. Biz bu prosesdə gənclər olaraq, müstəqil şəkildə iştirak etməyi qarşımıza hədəf qoyduq. Özümüzü bir daha cəmiyyətə təqdim etdik, reaksiyanı gördük. Bu məqsədlərə kifayət qədər nail olduq. Əldə etmək istədiklərimizdən daha çox uğur qazandıq".

**T.Abbaslı gələcəkdə siyasi qurum yaratmaqla bağlı planlarından da danışdı:** ""AĞ blok"un hər hansı bir quruma çevrilmək planı əvvəlcədən var idi. Seçkidə iştirakımız da bu planın dolayısı yolla mesajı idi. Seçkidə həm özümüzü, həm təşkilatlanma qabiliyyətimizi, həm də bacarığımızı sınamaq istəyirdik. Bu sınaqdan uğurla çıxdıq. Bu istiqamətdə danışıqlarımız davam edir. Bloku siyasi sferaya hərəkat, partiya kimi təqdim etmək ətrafında danışıqlarımız davam edir. "AĞ blok"un seçkilərdə topladığı təcrübə yeni qurumun platforması rolunu oynayacaq. Hədəflər qoyarkən insanlara yenilik bəxş etməyi ilk öncə düşünmüşük. Çox istərdik ki, təmsilçisi olduğumuz partiyalar da bu yeniliyə açıq olaydılar. Bildiyiniz kimi, blokumuzda Müsavat, KXCP və Ümid partiyalarından şəxslər var. Təəssüflər olsun ki, bu partiyalar yeniliyə qapalı oldular. Rəhbərlikdə olan qafaların XXI əsr siyasətinə aid olmadığı göründü. Yaxın zamanlarda atacağımız addımları hər kəs görəcək. İndiki mərhələdə siyasi passivliyi yaxşı bilirik. Bizim üçün də çox çətin olacaq siyasi quruma çevrilmək. Bunun fərqindəyik. Əminəm ki, bunun öhdəsindən gələcəyik. Xalqın çoxdan gözlədiyi yeni ümid olacağıq. Susqun görünə bilərik, amma passiv deyilik. Boş vədlərlə gündəmə gəlmək niyyətində deyilik. Siyasi arenaya güc kimi çıxmaq istəyirik. Yaxın zamanlarda "Ağ" partiya timsalında yeni bir qurum kimi cəmiyyətdə yer tutacağıq. Nəticələr qazanacağımıza inamımız tamdır. Bunun nümunələri də var. Qonşu Türkiyəni misal göstərə bilərəm. Yarandığı ilk iki ildə AKP hakimiyyətə gəldi. Mümkün olmayan bir şey yoxdur. Sadəcə, istək, həvəs, iman, inam, cəsarət olan yerdə istənilən uğur olacaq".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

# Amerikalı həmsədrin erməni təəssübkeşliyinin pərdəarxası

**AŞ PA məruzəçi Robert Volterin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərində zorakılığın artmasına dair" hazırladığı məruzənin qurumun Siyasi Məsələlər Komitəsində qəbul edilməsi maraqlı mənzərəni üzə çıxarıb, faktiki, Qarabağ məsələsinin ədalətli həllinə əngəl olan qüvvələrin təzə arealını cızıb. Bu barədə az aşağıda.**




## Ceyms Uorlik AŞ PA-da Azərbaycanın xeyrinə qəbul edilən sənəddən niyə ermənilər kimi rahatsız oldu? Lavrovun qəfil İrəvan səfərinin bu araya düşməsi də təsadüfi hesab edilmir...

Xatırladaq ki, sənədin təkcə adı işğalçı erməni tərəfində hiddət doğurmuş, ermənilər hətta məruzəçinin Ermənistana və separatçı bölgəyə səfərinə imkan verməmişdilər. Onlar Volteri azərbaycanpərəst, türkpərəst adlandıraraq, ümumiyyətlə, onun hazırlayacağı hesabatın obyektiv olmayacağını iddia edirdilər.

Lakin artıq məlumdur ki, ermənilərin canfəşanlığı boşa çıxıb. Məruzə komitədə 24 səs lehinə, 14 səs əleyhinə olmaqla qəbul edilib. Üstəlik, Azərbaycan tərəfinin məruzəyə təklif etdiyi 3 düzəliş də sənədə salınıb.

Sənəddə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi və 20 ildən artıq müddət ərzində işğal altında saxlanılması əksini tapıb, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tam bərpa edilməsinin zəruriliyi vurğulanıb.

***

Məruzə AŞ PA-nın qış sessiyasında müzakirəyə çıxarılacaq və böyük ehtimalla təsdiqlənəcək. Maraqlı proseslər də elə sənədin komitədə qəbulundan sonra başlayıb. Belə ki, Ermənistanda siyasi isteriya, narahatlıq baş qaldırıb, bunu Bakının diplomatik uğuru saymaqla yanaşı, düşmən ölkə siyasiləri və təhlilçiləri Azərbaycanı "kürü diplomatiyası" aparmaqda ittiham ediblər *(guya on illərdir ABŞ konqresmenlərini saxta soyqırımı tanıtmaq üçün pulla ələ almağa çalışan ermənilər deyilmiş),* eyni zamanda Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin istefası tələb edilib.

**Bundan da maraqlısı isə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlikin də ermənilər kimi əndişə keçirməsi olub. Məntiqlə, amerikalı vasitəçi beynəlxalq hüquqa söykənən belə sənədə sevinmək əvəzinə, öncə "problemlə Minsk Qrupu məşğul olur" deməklə AŞ PA sənədinin əhəmiyyətinə kölgə salmağa çalışıb. Ardınca isə lap gül vurub - özünün twitter səhifəsində absurd, erməniparəst bir status yazıb:** "AŞ PA və digər beynəlxalq təşkilatlar Dağlıq Qarabağ konfliktinə dair hansısa məruzə və ya qətnaməni müzakirə eləməzdən öncə Minsk Qrupu həmsədrləri ilə məsləhətləşməlidirlər".

***

Diqqət yetirildi yəqin ki, söhbət tövsiyədən, məsləhətdən yox, öhdəlikdən, məcburiyyətdən gedir. Deyəsən, 23 ildir problemi bir yerə çıxara bilməyən həmsədrlər, o sırada ABŞ Qarabağ məsələsini hələ daha neçə il öz inhisarlarında saxlamaq istəyirlər. Odur ki, Uorlikin bu yanaşması Azərbaycan tərəfinin haqlı və sərt etirazına səbəb olub. XİN-in yaydığı açıqlamada deyilir ki, həmsədrlər tərəfindən münaqişənin həlli yönündə hansısa cüzi irəliləyişə belə nail olunmadığı halda Ceyms Uorlikin münaqişənin həlli ilə əlaqədar digər təşkilatlara məsləhət və ya tövsiyə verməyə əsası və haqqı yoxdur.

**Sitat:** "İndiyədək Minsk Qrupunun həmsədrləri tərəfindən həyata keçirilən fəaliyyətin mahiyyəti sıfıra bərabərdir. Bunun müqabilində münaqişənin həllinə töhfə verməyə çalışan digər beynəlxalq qurumların mənasız fəaliyyətlə məşğul olan Minsk Qrupunun həmsədrləri ilə məsləhətləşməsinə heç bir lüzum görülmür. Əksinə, həmsədrlərin, xüsusilə də Ceyms Uorlikin beynəlxalq ictimaiyyətin iradəsinin ifadəsi olan BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının müvafiq qətnamələri, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların münaqişənin həllinə dair sənədlərinin məram və prinsiplərini rəhbər tutmasına və bu qurumlarla məsləhətləşməsinə ehtiyac var".

**XİN onu da əlavə edib ki, Minsk Qrupunun bu cür yarıtmaz fəaliyyəti hər bir vəchlə işğalçılıq siyasətini davam etdirmək və mövcud status-kvonu saxlamaq siyasəti güdən Ermənistanın maraqlarına xidmət edir:** "Ceyms Uorlikin də Ermənistanın işğalçılıq siyasətinin davam etdirilməsinə xidmət edən bu planın tərkib elementi olması istisna deyil".


Ceyms Uorlik


Robert Volter

Əslində belədir ki, var. Amerikalı həmsədr də, ermənilər də min əziyyətlə hazırladıqları, problemin həllinin üç təməl şərtindən biri kimi "öz müqəddəratını təyinetmə" hüququnun əks olunduğu və konfliktin mahiyyətini təhrif edən "Madrid prinsipləri"nin kağız parçasına çevriləcəyindən narahatdırlar.

***

Başqa bir diqqətçəkici məqam məruzənin komitədə qəbulundan dərhal sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrovun İrəvana səfərə gedəcəyi ilə bağlı yayılan xəbərdir. Noyabrın 9-da baş tutan səfərin Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanlın xahişi ilə reallaşdığı deyilir.

Bəzi mənbələrə görə, Rusiya XİN rəhbərinin İrəvan ziyarəti Moskvanın Qarabağ münaqişəsi ətrafında yaranmış təhlükəli vəziyyətdən narahat olması ilə əlaqəlidir. Bu haqda MQİMO-nun Qafqaz və Regional Təhlükəsizlik Problemləri Mərkəzinin baş elmi əməkdaşı Vadim səfəri şərh edərkən deyib.

**Rusiya XİN-in rəsmi açıqlamasına görə, Lavrov İrəvanda "qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələləri" müzakirə edəcək. Muxanov isə qeyd edir ki, Rusiya Qarabağ nizamlanmasında əsas vasitəçi olaraq qalır, ona görə də münaqişə zonasından tez-tez toqquşma xəbərlərinin gəldiyi bir vaxtda Rusiyanın rolu daha da aktuallaşıb.** "Şübhəsiz ki, Moskvanın indiki fəallığı münaqişə zonasında yaranmış vəziyyətlə əlaqəlidir. Gərginlik təkcə Qarabağda deyil, Ermənistan-Azərbaycan sərhədi boyu da artıb. Bu, olduqca kədərli faktdır və Moskvanı həyəcanlandırır" - qeyd edib politoloq.

**Ekspert Azərbaycan və Ermənistan prezidentləri arasında bu ilin sonuna qədər görüşün baş tuta biləcəyini istisna etməyib. Onun sözlərinə görə, Moskva səy göstərir ki, bu görüş alınsın. Ancaq Muxanov prezidentlərin danışıqlarının asan olmayacağını söyləyib:** "Kreml tərəfləri danışıqlar masası arxasına əyləşdirməyə çalışır. Aydındır ki, sülh prosesi çətin, olduqca uzun olacaq, ancaq prezidentlərin görüşü faktının özü Rusiyanın rolunun əhəmiyyətini göstərir",- deyə o bildirib.

***

Beləcə, Qarabağ məsələsi ətrafında situasiyaya yeni ştrixlər əlavə edilməkdədir. Böyük ehtimalla, AŞ PA-nın qış sessiyasında Uolterin məruzəsi qəbul ediləndən sonra daha maraqlı situasiyanın şahidi olacağıq. Görək, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qeyd-şərsiz təmin edilməsinə çağıran növbəti qətnaməyə düşmən ölkənin və Uorlikin budəfəki reaksiyası nə olacaq?

# "Düşməndən güclü olduğumuzu yaxınlarda sübut edəcəyik"

## Müdafiə naziri: "İşğalçı psixoloji cəhətdən sarsıdılıb, vahimə içindədir..."

**Müdafiə Nazirliyinin rəhbərliyi dünən cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birində Dövlət Bayrağı Günü münasibətilə keçirilən tədbirdə iştirak edib. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, şəxsi heyətlə keçirilən tədbirdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov öncə Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu qarşısında qoyduğu bir sıra tapşırıqları diqqətə çatdırıb.**



Onun sözlərinə görə, cəbhədə keçirilən tədbirlər nəticəsində xeyli sayda düşmən məhv edilib, düşmən psixoloji cəhətdən sarsıdılıb: "Əsgərlərimizin ruh yüksəkliyi düşmənləri qorxudur. Onlar vahimə içərisindədirlər. Müdafiə Nazirliyinin rəhbərliyi ilə cəbhə bölgəsində şəxsi heyətin xidməti döyüş fəaliyyətini, döyüş növbəsini yoxladıq. Bir daha əmin olduq ki, Azərbaycan əsgəri mərd şəkildə cəbhədə düşmənlə üz-üzə dayanaraq onu işğal olunmuş torpaqlarımızdan qovub ərazilərimizi azad etməyə tam hazırdır. Buna nail olmaq üçün bizim bütün imkanlarımız var. Hər gün ordumuz müasir silahlar, toplar, zirehli texnikalarla silahlanır, yeni tikililər, o cümlədən sizin də xidmət etdiyiniz hərbi hissəniz əsgər və zabitlərin istifadəsinə verilir. Bunlar hamısı bizə imkan verir ki, haqq sözümüzü, mövqeyimizi müdafiə edək və qısa bir müddətdə ermənilərə göstərək ki, Azərbaycan xalqı, ordusu onlardan qat-qat üstündür. Biz bunu bu yaxınlarda düşmənə sübut edəcəyik".

**Nazir çıxışını belə tamamlayıb:** "Azərbaycan Silahlı Qüvvələrinin gücü məhz şəxsi heyətin vətənpərvərliyi, döyüş əzmi və ruh yüksəkliyində, yüksək nizam-intizamında və peşəkarlığındadır. Bir daha sizi təbrik edir və uğurlar arzulayıram".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

# Məhkum Ədliyyə Nazirliyinin baş həkimini məhkəməyə verdi



**3 saylı İstintaq Təcridxanasında saxlanılan Rauf Sultanov Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Rəfael Mehdiyevi və təcridxananın baş həkimi Bəylər Əliyevi məhkəməyə verib. Yaxınlarından birinin redaksiyamıza verdiyi məlumata görə, R.Sultanov 1-ci qrup əlil kimi ona verilməli olan dərmanları ala bilmədiyinə görə məhkəməyə üz tutub.**

1 saylı İnzibati İqtisad Məhkəməsinə yolladığı iddia ərizəsində R.Sultanov 1-ci qrup əlil olduğunu və qanuna görə istintaq təcridxanasında deyil, Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılmalı olduğunu yazıb. Qeyd edib ki, buna baxmayaraq, İstintaq Təcridxanasında saxlanılır və müvafiq dərmanlarla təmin olunmur.

Nazirlər Kabinetinin normativ aktına əsasən R.Sultanov epilepsiya xəstəliyindən əziyyət çəkən şəxs kimi dərmanla təmin olunmalıdır. Amma dərmanlar ona verilmir. Yaxınları deyir ki, R.Sultanovun istifadə etdiyi "Finepsin" adlı dərmana görə hər ay 136 manat xərcləyirlər. Halbuki həmin dərmanların alışı üçün dövlət tərəfindən vəsait ayrılır. Təcridxananın baş həkimi Bəylər Əliyev R.Sultanova deyib ki, dərmanlar baş idarədən ayrılmadığından onu dərmanla təmin edə bilmirlər.

Bundan başqa, R.Sultanovun ayağında çürümə prosesi gedir. Çürümənin qarşısını almaq üçün ona təcridxanada "Fulisinal" adlı maz verilib. Həmin maz isə dəriüstü yaraların müalicəsi zamanı istifadə olunur. Buna görə də R.Sultanov həmin mazdan istifadə etməyib. Onun müalicə müəssisəsinə köçürülməsi də həyata keçirilmir.

Məsələ ilə bağlı Ombudsmanlıqla əlaqə saxladıq. Qurumdan bildirdilər ki, R.Sultanovun problemi ilə maraqlanacaqlar.

❑ **E.MƏMMƏDƏLİYEV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Bakıda bankda dava: xanım işçini keçmiş nişanlısı döydü

**Bakıda yerləşən bankların birində dava düşüb. Banka gələn şəxs keçmiş nişanlısını hər kəsin yanında döyüb. Hadisə "Nikoil" bankın Həsən Əliyev küçəsində yerləşən filialında baş verib.**

Hadisə şahidlərinin musavat.com-a verdiyi məlumata görə, banka gələn gənc oğlan xanım işçilərdən biri ilə mübahisə edib. Daha sonra isə xanım işçiyə zərbələr endirib. Hadisəyə bank işçiləri və mühafizə xidmətinin əməkdaşları müdaxilə edib.

Məlumata görə, qızı vuran Asiman Məmmədli adlı şəxsdir. Onun döydüyü xanım isə bankda işləyən keçmiş nişanlısı A.Məmmədovadır.

Keçmiş nişanlısını döyən şəxs ətrafda olanlar tərəfindən bankdan çıxarıldıqdan sonra qəzəbini A.Məmmədovanın maşınından çıxmağa çalışıb. Belə ki, A.Məmmədli keçmiş nişanlısının "Hyundai" markalı maşınını təpikləyərək əzib.

❑ **İlkin MURADOV**

## Bakıda sərxoş "avtoş"dan film kimi "şou"...

**Bakıda daha bir avtoxiliqan saxlanılıb. Avtosfer.az xəbər verir ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları paytaxtın Xətai prospektində "Toyota Corolla" markalı avtomobilin sürücüsünün avtoxuliqanlıq etdiyini görüb ona "saxla" işarəsi veriblər.**

Lakin sürücü - 21 yaşlı Eldar Əsgərov avtomobili saxlamaq əvəzinə süräti artıraraq Nobel prospektinə çıxıb. Orada da avtomobillə təhlükəli hərəkətər edərək beton yolla Yeni Zığ şossesi vasitəsilə Qala-Türkan yoluna istiqamətlənib.

Yol polisinin onu izlədiyini görən sürücü hətta maşını beton manelərə vuraraq yararsız hala salıb. Uzun prosesdən sonra yol polisi süni tıxac yaratmaqla sürücü Eldar Əsgərovu aeroport yolunda saxlayıb. Sürücü maşından düşüb qaçsa da, polis onu saxlamağa müvəffəq olub.

İlkin araşdırmada məlum olub ki, sürücü sərxoş vəziyyətdədir. Həkim müayinəsindən keçən sürücünün orta dərəcəli sərxoş olduğu ortaya çıxdı. Dindirmə zamanı E.Əsgərov bildirib ki, bir şüşə çaxır içib.

Sürücü Eldar Əsgərov məhkəmə qərarı ilə 1 illik sürücülük hüququndan məhrum edilməklə yanaşı, həm də 10 gündən 30 günədək inzibati həbs cəzasına məhkum edilə bilər.

## Yol polisindən sürücülərə "şüşəsilən" xəbərdarlığı

**Avtomobilinin şüşəsiləni işləməyən sürücülər məsuliyyətə cəlb olunacaqlar. Bunu "Trend"ə Daxili İşlər Nazirliyi Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov deyib.**

V.Əsədov qeyd edib ki, Bakının əksər yerlərində yağışın yağması avtomobillər üçün təhlükə yaradır. Qurum rəsmisi sürücülərə müraciət edərək onları ehtiyatlı olmağa çağırıb: "Yağış avtomobillərin hərəkəti zamanı sürüşmə ehtimalını artırır. Ona görə də sürücülərdən xahiş edirik ki, sürət həddini minimuma endirsinlər. Bununla yanaşı, şüşəsilənləri işləməyən nəqliyyat vasitələrinin hərəkət etməsi olduqca təhlükəlidir. «Yol hərəkəti haqqında» Qanuna görə, bu cür avtomobillər yol hərəkətindən kənarlaşdırılır və sürücülər məsuliyyətə cəlb olunur".

**Bölmə rəisi sürücüləri avtomobillə yağış sularının yaratdığı gölməçələrdən keçərkən diqqətli olmağa səsləyib:** "Sürücülər avtomobillə yağış sularının yaratdığı gölməçələrdə hərəkət edən zaman mütləq ətrafdakı piyadaları düşünməlidirlər. Buna görə sürücülər məsuliyyət daşıyır".


### Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


## Sonsuzluqda suçlanan 22 yaşlı gəlin özünü asdı

**Bakıda gənc qadın intihar edib. Nizami Rayon Polis İdarəsindən virtualaz.org saytına verilən məlumata görə, intihar hadisəsi rayon sakini, 1993-cü il təvəllüdlü Nuranə Vasif qızı Panıyeva noyabrın 8-nə keçən gecə özünü Naxçıvani küçəsində yaşadığı mənzildə asıb. Nizami RPİ 24-cü polis bölməsinin müstəntiqləri tərəfindən aparılmış ilkin araşdırma zamanı məlum olub ki, 22 yaşlı qadını bu addımı atmağa məcbur edən səbəb ərinin və sonuncunun yaxınlarının qadına mənfi münasibəti olub.**

Onlar N.Panıyevanı sonsuz olduğu üçün məzəmmət və ittiham edirmiş. Ailədə bu zəmində gərginlik yaşanırmış.

## Şirvanda 29 yaşlı qız bıçaqlandı

**Şirvanda 29 yaşlı qadın bıçaqlanıb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə noyabrın 8-də saat 22.30 radələrində Şirvan şəhəri H.Əliyev prospekti 28a, mənzil 31 ünvanında baş verib.**

Həmin ünvanda yaşayan və qeydiyyatda olan 1986-cı il təvəllüdlü Zeynalova Arzu Mirzəbəy qızına bıçaqla xəsarət yetirilib. Mədə nayihəsindən bıçaq yarası alan qadın Şirvan şəhər xəstəxanasına çatdırılıb və əməliyyata götürülüb. Hadisənin başvermə səbəbləri və təfərrüatları araşdırılır. Qadını xəstəxanaya çatdıran əri həyat yoldaşının ruhi xəstə olduğunu və onun özü-özünə bıçaqla xəsarət yetirdiyini bildirir. Faktla bağlı Şirvan polis şöbəsində araşdırma aparılır.

## Bakıda yağış, rayonlarda qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, noyabrın 10-da Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək, arabir yağış yağacağı gözlənilir, bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 7-10, gündüz 11-13, Bakıda gecə 8-10, gündüz 11-13 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında da arabir yağış yağacağı gözlənilir, bəzi yerlərdə intensiv olacağı, dağlıq və dağətəyi rayonlarda sulu qara, qara keçəcəyi ehtimalı var.

Ayrı-ayrı yerlərdə duman olacaq, arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-8, gündüz 9-13 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 2-7 dərəcə isti olacaq.




## "Nar" Azərbaycanın milli-mədəni irsinə bağlılığını bir daha nümayiş etdirdi

### Mobil operator Göyçayda keçirilən ənənəvi "Nar" festivalında aktiv iştirak etdi

**Hər zaman Azərbaycan xalqının zəngin keçmişi, adət-ənənələri və milli-mədəni irsinə bağlılıq nümayiş etdirən "Nar" Göyçayda keçirilmiş ənənəvi "Nar" festivalında aktiv iştirakı ilə yadda qaldı. Mobil operatorun sadiq qaldığı dəyərləri, brendin ideyası və yeni loqosunu simvolizə edən nar, məhz uzun illər boyunca milli mədəniyyət nümunələrini özündə əks etdirmiş bir fəlsəfənin tərənnümüdür.**

**Məlumdur ki, Göyçay bütün dünyada məşhur olan Azərbaycan narının vətəni hesab olunur. "Nar" festivalı hər ilin noyabr ayında məhz bu rayonda möhtəşəm bayram atmosferində keçirilən bir tədbirdir.**

**Müxtəlif maraqlı müsabiqələr və əyləncəli oyunlarla müşayiət olunan görüş zamanı qurulmuş "Nar" çadırı ikiqat bayram əhval-ruhiyyəsinə səbəb oldu. Burada abunəçilərə 4 nəfərə pulsuz danışıq imkanı verən "Ailəm" paketi haqqında ətraflı məlumat verildi və tədbir iştirakçıları müxtəlif hədiyyələrlə mükafatlandırıldı.**

**"Nar" tərəfindən festival çərçivəsində təşkil edilmiş kompleks tədbirlər geniş ictimai marağa səbəb oldu. "Nar" bayramında iştirak edən media nümayəndələri "Nar" çadırına gələrək, mobil operator tərəfindən keçirilən tədbiri maraqla izlədi.**


### Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 249 (6277) 10 noyabr 2015

**Ölkə bazarında yodlaşdırılmış duz adı ilə qışda yollara tökmək üçün istifadə edilən duzlar satılır. Baxmayaraq ki, 2001-ci ildə yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədilə duzun yodlaşdırılması haqqında qanun qəbul olunub və yodsuz duzların satışı qadağandır. Qanuna görə, yodlaşdırılmamış duzu heç heyvanlara da yem məqsədi ilə vermək olmaz.**

# Satışda təhlükəli duzlar var

Biz də əhaliyə yodlaşdırılmamış duzların satılıb satılmadığını öyrənmək üçün bir neçə marketə baş çəkdik. Satıcılardan deyilənlərə münasibət öyrəndik. Küçələrə səpilən duzun süfrə duzu adı ilə satıldığını, həmçinin satışda yodsuz duzların olub-olmadığını soruşduq. Satıcı satışda Rusiya və Azərbaycan istehsallı duzların olduğunu dedi.

Küçələrə səpilən duzun isə onların marketində satılmadığını bildirdi. Vitrində olan duzlara göz gəzdirdikdə isə tərkibində yodlu yazılan duzların kifayət qədər olduğunu gördük. Ancaq üzərində yodlu və ya yodsuz yazılmayan duzlar da var idi. Satıcıdan duzun yodlu və ya yodsuz olduğunu soruşduqda satıcı duzu alıb o tərəf bu tərəfinə baxıb "yəqin ki, yodlu olar" dedi. Ancaq üzərində bu haqda heç bir məlumat qeyd edilməmişdi.

**Söhbətə qatılan alıcı Yusif Məmmədov isə yodun duzda maksimum 3 ay qaldığını, sonra buxarlandığını dedi:** "Yodlu duz yazılıb. Bir il də istifadə tarixi var. Bu yodlu duz olsa da ekspertizaya aparsaq əslində yodun qalmadığını görərik. Çünki yod duzun tərkibində maksimum 3 ay qala bilər, 1 il yox".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov yodsuz duzların satışı qadağan olsa da, hazırda yodsuz duz satışının kütləvi hal aldığını və bununla bağlı həyəcan təbili çaldığını bildirdi:** "Bizə xəbər gəlib ki, həmin duzla dolu böyük bir yük maşını Qazax rayonuna gedib. Həmçinin Tovuzun Qovlar qəsəbəsinə də bu duzlardan gedib. Bu Ukraynanın "artyomsol" sovet vaxtından Azərbaycana gətirilən mal nişanı ilə ona oxşar üzərinə yodlu yazılmış duzlardır. Ancaq bu duzların üstünə "yodlu" yazılsa da əslində yodsuzdur. 2001-ci ildə yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında qanun qəbul olunub. Qanunun 8.3 maddəsinə görə, ölkədə yodsuz duzun satılması, istehsalı, hətta heyvanlara yem məqsədi ilə verilməsi qadağandır. Necə ki, narkotik, silah qadağandır, yodsuz duzun da satışı qadağandır. Çünki ölkədə bu sahədə ciddi problemlər var. 2001-ci ildən bəri dövlət orqanları bir dənə məsələni həll edə bilmir, yaxud da etmək istəmir. Mən istehlakçıların hüququnu qoruyan bir təşkilatın sədri kimi dövlət orqanlarına da demişəm ki, ölkədə bir dənə duzun yodlaşdırılmasına nail ola bilmirsiniz. Yodsuz duzlar marketlərdə satılır. Mən 20 gün bundan



**Azad İstehlakçılar Birliyinin sədri:** "Duzların üstünə "yodlu" yazılsa da, əslində..."



**Adil Qeybulla:** "Yodlaşdırılmış duz uzun müddət qala bilməz"

əvvəl Səhiyyə Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə, Standartlaşdırma, Meteologiya və Patent üzrə Dövlət Komitəsinə nümunələri də, satış şəbəkəsini də vermişəm və xahiş etmişəm ki, bunun qarşısı alınsın. Dövlət orqanları mənə zəng edib deyir ki, onun istehsal yerlərini bizə deyin. Mən deyirəm ki, əgər ictimai təşkilat gedib onun istehsal yerini axtarıb tapandırsa, o zaman siz niyə orada oturmusunuz və nə ilə məşğulsunuz?! Hələ ki Səhiyyə Nazirliyindən də bir cavab gəlməyib. Mən məcbur olub baş nazirə məktub yazaraq bu problemdən onu agah etmişəm. Mən dövlət orqanlarına yazdığım məktubda göstərmişəm ki, ölkə prezidentinin keçən ayın, yəni oktyabrın 12-də ölkədə rüşvətxorluqla bağlı dediklərinə ancaq haqq qazandırmaq olur. Yəni rüşvət verib bunu buraxırlar. Belə çıxır ki, rüşvət verir və bu duzları satırlar. Bunu ancaq belə başa düşmək olar. Hər şey dövlət orqanlarının gözü qarşısında olur. Təəssüf ki, ölkə prezidentinin sahibkarlığa yaratdığı bu şəraitdən sahibkarlar sui-istifadə edir və ölkədə ciddi epidemiyaların, xəstəliklərin yayılması gözlənilir. Bu barədə baş nazirə məlumat vermişəm".

**Bütün bunların qarşısının alınıb-alınmayacağı məsələsinə gəlincə isə qurum sədri bunun dövlət orqanlarından asılı olan bir məsələ olduğunu dedi:** "Nə qədər ki, adını çəkdiyim dövlət orqanları rüşvətlə işləyirlər, bunun qarşısını almaq mümkün olmayacaq. Nə vaxt təmiz işləyərlərsə, bu kimi halların qarşısı alınacaq".

Qeyd edək ki, yod çatışmazlığı isə əqli zəiflik, qısaboyluluq, zob xəstəliyi yaradır. Buna görə də istehlakçılar duzu alarkən ilk növbədə duzun xarici görünüşünə diqqət yetirməlidir. Standartlara görə, duz kristallik, dənəvər məhsul olmalıdır. Duzda mənşəyi ilə əlaqəsi olmayan kənar mexaniki qarışıqların olmasına yol verilmir. Duz tam iysiz, yaxud zəif yod qoxulu olmalıdır. Rəngi isə ekstra növ üçün ağ, digər növlər üçün bozumtul, sarımtıl çalarlı ağ ola bilər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla yodlaşdırılmış duzun uzun müddət qalmadığını dedi:** "Mağazalarda satılan duz xörək duzudur. Amma yollara səpilən duz süfrə üçün yararsızdır. Xörək duzu natrium xloriddir. Ona yodun vurulması Azərbaycanın bəzi zonalarında yodun çatışmazlığı ilə bağlıdır. Böyük Qafqazda sularda yod çatmadığına görə yodlaşdırılmış duzdan istifadə olunur. Əslində bu, rasionda yodu bərpa etmək üçündür. Hökm deyil ki, bütün duzlarda mütləq yod olmalıdır. Bu gün mağazada satılan duzların tərkibi natrium xloriddir. Yodlaşdırılmış duz uzun müddət qala bilməz. Onun saxlanma müddəti çox qısa, bir neçə aydır. Yodlaşdırılmış duzdan yod buxarlanır və həmin duz bir müddətdən sonra yodsuz duza çevrilir. Yodlaşdırılmış duz yenə də deyim ki, yodu bərpa etmək üçün müəyyən zonalarda sovet dövründən bir proqram kimi Azərbaycanda Böyük Qafqazın bəzi ərazilərində yaşayan insanlar üçün nəzərdə tutulurdu. Suda və qida rasionunda duz olan yerlərdə yodlaşdırılmış duzlardan istifadə etməyə ehtiyac yoxdur. Göldən çıxarılan duzlar da natrium xloriddir. Amma onlar qatqılardan təmizlənməlidir. Söhbət onun istehsal prosesi və təmizlənməsinin nə dərəcədə getməsindədir".

❑ Günel MANAFLI

# "O səs Türkiyə"də anonim səslənən Azərbaycan mahnıları

## Bu tendensiyanın qarşısını necə almaq olar?

**Son zamanlar Türkiyə şou-biznesində Azərbaycan mahnılarına geniş yer verilir. Lakin təəssüfedici haldır ki, bir çox hallarda mahnılarımızın müəllifləri göstərilmir, anonim kimi təqdim olunur. Doğrudur, bu tendensiya ötən illərə nisbətən azalmağa başlamışdı. Lakin bugünlərdə "O səs Türkiyə" yarışmasında sözləri xalq şairi Fikrət Qocaya məxsus "Gəl, ey səhər" mahnısının müəllifinin anonim göstərilməsi məsələni bir daha aktuallaşdırıb.**




Türkiyənin "TV 8" kanalına yayımlanan "O səs Türkiyə" yarışmasında məşhur Azərbaycan mahnılarının müəlliflərinin anonim və ya başqası olaraq göstərilməsi ilk dəfə deyil. Narahatlıq doğuran məqam isə ondan ibarətdir ki, bir çox hallarda azərbaycanlı iştirakçıların ifasında da bu hal baş verir.

Bu barədə kiçik araşdırma apardıq və məlum oldu ki, hələ 2014-cü ilin noyabrında adıçəkilən yarışmada iştirak edən Nicat Məhərrəmov sözləri Rəsul Həmzətov, musiqisi Qulu Əsgərova aid olan "Əziz dostum" mahnısını ifa edərkən titrdə müəlliflər Arif Babayev, Şah Ruh və bəstəkarı isə Azize Gürsəs kimi təqdim olunmuşdu. Daha sonra həmin ilin dekabrında Türkiyənin Ərdəxan vilayətindən qatılan 16 yaşlı Sahil Ekmekçi də bu mahnını ifa etdi və səhv olaraq titrdə eyni müəlliflər yazıldı.

Daha bir fakt isə sözləri İslam Səfərli, musiqisi Andrey Babayevə məxsus olan "Nazəndə sevgilim" mahnısı ilə bağlıdır. Yarışmada iştirak edən Sekan Kıranlı adlı iştirakçı mahnını ifa edərkən titrdə müəlliflər İslam Səfərli və Bekirof olaraq göstərilib. Onu da əlavə edək ki, bu mahnının müəllifləri bir neçə dəfə anonim kimi təqdim olunub. Məsələn, Türkiyənin "TED senfoni orkestra"sı "Türk Eğitim Derneği"nin 85 illiyinə həsr olunan gecədə Murat Karahanın solistliyi ilə "Nazəndə sevgilim" mahnısını ifa olunarkən onun sözləri anonim, bəstəkarı isə "Azeri Bekirof" kimi qeyd edilib.

Ötən ilin oktyabrında "O səs Türkiyə" yarışmasında iştirak edən azərbaycanlı ifaçı Tamara Muradova məşhur "Yalqızam" mahnısını ifa edərkən müəlliflər belə qeyd olunub: "Sözləri və bəstəkarı Rəsul Rza". Halbuki mahnını sözlərinin müəllifi Rəsul Rza, bəstəkarı isə Tofiq Quliyevdir. Mahnı T.Quliyevin yaradıcılığında özünəməxsus yer tutmuş ən gözəl nümunələrdən biridir.

Xatırladaq ki, bugünlərdə azərbaycanlı gənc müğənni Aynişan Quliyeva *(Aybəniz Haşımovanın qızı)* "O səs Türkiyə" yarışmasında sözləri xalq şairi Fikrət Qocaya, musiqisi Polad Bülbüloğluna məxsus məşhur "Gəl, ey səhər" mahnısını ifa edərək uğurlu çıxış etdi. İfa uğurlu alınsa da, efirdə əksini tapan titrdə mahnının sözlərinin müəllifinin anonim kimi göstərilməsi tənqidlərə səbəb oldu. Fikrət Qoca müəlliflik hüququnun pozulması ilə bağlı mətbuata açıqlama verərək, öz narazılığını bildirmiş və bu məsələdə gənc müğənnini deyil, onu yarışa hazırlayan anasını, əməkdar artist Aybəniz Haşımovanı günahlandırmışdı.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 249 (6277) 10 noyabr 2015



## Kralın 16 “KamAZ”lıq əşyası azərbaycanlı milyarderin hotelində

**G-20 liderlərinin sammitində iştirak etmək üçün Türkiyəyə səfərə hazırlaşan Səudiyyə Ərəbistanı kralı Salman bin Əbdüləziz və onu müşayiət edəcək heyətin şəxsi əşyaları artıq Antaliyaya gətirilib. 16 “KamAZ” əşya və 65 ədəd xüsusi hazırlanmış “Mercedes” markalı maşın “Mardan Palace” hotelinə çatdırılıb. Kral və şahzadə Telal bir gecəsi 15 min avro olan villalarda qalacaqlar. Şəxsi əşyaların arasında kral ailəsinin yataq dəstləri, istifadə edəcəkləri stəkanlar, geyimlərindən tutmuş hər şey var.**

Səudiyyə Ərəbistanından olan heyət üçün azərbaycanlı iş adamı AST Telmanın tikdirdiyi milyardlıq hoteldə 546 otaq hazırlanıb. Kral və şahzadənin qalacağı villalarda hazırlıq iki ay öncə başlayıb. 1000 nəfərlik heyətlə hotelə gələcək kral bu xidmətin müqabilində 18 milyon dollar ödəyəcək. Səudiyyə Ərəbistanı kralı zirvə toplantısından bir neçə gün öncə Antalyaya gedəcək, toplantıdan bir neçə gün sonra da ölkəsinə qayıdacaq.



## Facebook insanları xoşbəxt edir

**Danimarkalı alimlərin apardıqları araşdırmlar nəticəsində məlum olub ki, facebook sosial şəbəkəsindən istifadə edənlər etməyənlərlə müqayisədə özlərini daha xoşbəxt hiss edirlər. Araşdırmada 1095 nəfər iştirak edib. Almaniyanın media quruluşu olan Deutsche Vellenin xəbərinə görə, Kopenhagendəki Happines Research İnstitutunun mütəxəssisləri 1 həftə facebookdan istifadə edənlərin etməyənlərlə müqayisədə özlərini daha yaxşı hiss etdiklərini deyiblər.**

# Kennedinin öldürüldüyü maşının nömrəsi hərraca çıxarılıb

**Amerikanın keçmiş prezidenti Con Kennedinin 1963-cü ilin noyabr ayında Dallasa sui-qəsdə qurban getdiyi zaman içində olduğu “Limuzin”in nömrələri hərraca çıxarılıb. Polislər sui-qəsddən sonra maşının təmirə göndərildiyini və orada maşın nömrələrinin çıxarıldığını açıqlayıb.**



Sözügedən maşın servisinin sahibi kənara atılan nömrələri saxlayıb və qızına miras saxlayıb. Qızı isə illərlə evində saxladığı maşın nömrələrini bu il satışa çıxarıb. GG-300 maşın nömrəsinin sahibi BBC-yə müsahibəsində nömrələrin tarixi dəyərindən xəbərdar olduğunu deyib. Volker nömrəni mətbəxdə saxladığını və bəzən dostları üçün üzə çıxardığı deyib.

# İş stressi ömrü qısaldır

**Amerikalı alimlərin apardıqları araşdırmalara görə, stresli iş insanların ömrünü 33 il qısalda bilir. Amerikanın fərqli bölgələrində yaşayış səviyyələrinə nəzərən aparılan araşdırmada stresli iş şəraitində çalışan insanların ömrünün daha qısa olduğu məlum olub. İrq, təhsil və cinsiyyət nəzərə alınaraq aparılan araşdırmada 10 fərqli iş haqqında müzakirələr aparılıb. İnsanların sığortası, iş saatları, təhlükəsizliyi, ailələrinə zaman ayırması nəzərdən keçirilib.**

Fərqli şəhərlərdə yaşayan insanların fərqli həyat tərzlərinə malik olduğunu deyən mütəxəssislər stressin gündəlik həyata pis təsir etdiyini və psixologiyanı korladığını deyiblər. Bununla bərabər, rahat iş istəyi, işsizlik qorxusu, rəqib məsləkdaşlarla düşmənçilik stressi artıran şərtlər arasındadır. Mütəxəssislərin fikrincə, iş şəraitinin yüngülləşdirilməsi insan ömrünün uzanması üçün olduqca önəmlidir.





## Bayquşa qeyri-adi cəza

**Hollandiyanın Purmerend şəhərində çoxsaylı adamları yaralayan bayquşa ömürlük həbs cəzası kəsilib. Bələdiyyənin bayquşu həbs etmək üçün dövlətdən icazə kağızı alınıb. Ötən il ortaya çıxan bayquş uzun müddət camaata qorxulu günlər yaşadıb. Bayquş idmanla məşğul olan adamları dimdiyi ilə ağır yaralayıb. Bu hadisələrdən sonra bələdiyyə camaata çətirlə gəzməyi məsləhət görüb. Uzun axtarışlardan sonra tutulan bayquşun həbs edilməsinə qərar verilib.**

Hollandiyada fəaliyyət göstərən bayquş təşkilatı quşun təbiətə zərər verəcəyi haqda xəbərdarlıq edib. Heyvan sevənlər isə quşun həbs edilməsi üçün etiraz aksiyalı keçiriblər. Araşdırmaçılar quşun bir insan tərəfindən yetişdirildiyini düşünürlər.




**QOÇ** - Qonşu və ya qohumlarınızla, eləcə də həmkarlarınızla münasibətlərinizdə yeni və müsbət mərhələ başlayacaq. Ola bilsin səfərə də çıxasınız. Saat 17-dən sonra işgüzar əlaqələri dərinləşdirin.

**BUĞA** - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinə həsr edin. Digər insanlarla münasibətləri məhdudlaşdırın. Əks təqdirdə, ovqatınız korlana bilər. Şəxsi büdcənizi artırmağa çalışın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, günortaya qədər mənzil şəraitində istirahət edəsiniz. Çünki həmin ərəfədə hansısa uğur gözlənilmir. Nahardan sonra isə istənilən sövdələşməniz baş tutacaq.

**XƏRÇƏNG** - Maliyyə problemlərinizin mövcudluğunu görən ulduzlar sizə kömək etmək istəyir. Lakin hansısa aktivlik göstərə bilmirsiniz. Gözütox olun. Bu axşam bütün dəvətləri qəbul edin.

**ŞİR** - Düşərli ərəfədir. Bəxtinizin gətirəcəyinə şübhəniz olmasın. Saat 15-18 arasını bütünlüklə sevgiyə həsr etməklə mənəvi rahatlıq tapacaqsınız. Amma səhhətinizi də qorumalısınız.

**QIZ** - Təzadlı gündür. Hadisələrin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yön ala bilər. Özünüzü gərginliyə salmayın. Heç kimin şəxsi işlərinə qarışmayın. Münasibətlərdə ciddi olun.

**TƏRƏZİ** - Ötən ongünlükdə icra edə bilmədiyiniz planlara yenidən baxmağınız vacibdir. Əgər özünüzü qalmaqallardan qoruya bilsəniz, axşama doğru sürprizləriniz olacaq. Pul da gözlənilir.

**ƏQRƏB** - Mənfi enerjili Ay bürcünüzdə olduğundan ilk növbədə səhhətinizə fikir verin. Mübahisəli situasiyalardan qaçın. Bu gün daha çox yeni, işgüzar sövdələşmələrdə uğurlarınız mümkündür.

**OXATAN** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən səhhətinizlə bağlı xoşagəlməzliklər, digər tərəfdənsə münaqişələrə cəlb olunmağınız ovqatınıza mənfi təsir göstərə bilər.

**OĞLAQ** - Öz gücünüzə nə qədər arxayın olsanız da, həlledici məqamlarda etibarlı adamların məsləhətinə qulaq asın. Axşam görəcəyiniz işlərin planını qurmaq istiqamətində sövdələşmələr aparın.

**SUTÖKƏN** - Bu gün digər bürclərdən fərqli olaraq sizin üçün olduqca maraqlı bir təqvim yaşanacaq. Ələlxüsus da saat 14-dən sonra sevindirici hadisələrin şahidi olacaqsınız. Ağır işlərə girişməyin.

**BALIQLAR** - Mövcud problemlərinizin həllində ətrafınızda olan etibarlı şəxslərin köməyindən yararlanın. İndiki halda təkbaşına qərar çıxarmaq zərərinizədir. Axşam yeniliklərin şahidi olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Saxta təqaüdə görə ömürlük həbs



**Amerikanın Filadelfiya ştatında ailələri tərəfindən tərk edilən, əqli problemlərə malik 10 nəfərin təqaüdünü alan qadın ömürlük həbs cəzası alıb. Linda Veston adlı qadın altısı böyük və dördü uşaq olmaqla, 10 nəfərin 10 il ərzində təqaüdlərini mənimsəyib. Ümumilikdə dövlətdən 212 min dollar oğurlayan qadın xəstələri Texas, Virciniya və Florida ştatlarında binaların birinci mərtəbələrində və ya heyvanların saxlanıldığı yerlərdə saxlayıb. Qadınların bəzilərinin zorakılığa məruz qalmasına səbəb olub. Bir qadın və bir uşağın şəraitsizlik səbəbindən ölümünə səbəb olub. İnsan oğurluğu, cinayət, saxtakarlıq və başqa bir neçə əmələ görə həbs edilən qadına ömürlük həbs cəzası kəsilib.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300